**EVDƏ QAL, SAĞLAM QAL!**

**Leyla Əliyevanın şeirləri Gürcüstan mətbuatında**



Bax 4

**Vətəndaşlar Prezidentə yazırlar: "Gördüyünüz işlər xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır"**



Bax 5



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 087 (6052) 22 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycanda əhalinin sayı 10 milyon 79 min 956 nəfərə çatıb



Bax 4

İlin əvvəlindən ölkə əhalisinin sayı 12 min 848 nəfər və ya 0,1 faiz artaraq 2020-ci il aprel ayının 1-i vəziyyətinə 10 milyon 79 min 956 nəfərə çatıb. Bu barədə AZƏRTAC-a Dövlət...

# "Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır"



Bax 2

*Prezident İlham Əliyev Seymur Orucovu Ağstafa, Elçin Rzayevi isə İmişli rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib*

## İsrail televiziya kanalında Arye Qutun çıxışı İsrailin erməni icmasını yerindən oynatdı

Bax 7



*Dünya birliyi bir neçə gün bundan əvvəl ağır pandemiya şəraitində faşizm üzərində Qələbənin 75 illiyini...*

## Paşinyan etiraf etdi: Ölkədə vəziyyət çox ağırdır!



Bax 4

"Ermənistanda vəziyyət çox ağırdır. Biz çıxış yolu tapmalıyıq". AZƏRTAC xəbər verir ki, bu bəyanatla Ermənistanın baş naziri...

**Volkan Aydemir: Qarabağda keçirilən saxta "seçkilər" Ermənistanın cinayətkar siyasətinin davamıdır**




Bax 10

**"O tərbiyəsiz qrupun bütün üzvləri qanun qarşısında cavab verəcək"**



Bax 13

**Filippe Koutinyo İngiltərə yolçusudur?**



Bax 16

# "Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır"

*Prezident İlham Əliyev Seymur Orucovu Ağstafa, Elçin Rzayevi isə İmişli rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib*



*"Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım göstəririk. Bu yardım insanları bu ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır"*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı videoqəbulda çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

-Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaq.

Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın.

Bizim bölgələrdə gördüyümüz işlərin mənbəyi xalqın iradəsidir. Bildiyiniz kimi, artıq regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bütün proqramların tərtibatında yerlərdən gələn təkliflər üstünlük təşkil edir. Mənim bölgələrə, rayonlara çoxsaylı səfərlərim və səfərlər əsnasında vətəndaşlarla görüşlərim bu proqramların hazırlanmasında xüsusi rol oynayır. Çünki bölgələrdə elə işlər görülməlidir ki, o işlər öz həllini gözləyir, insanlar əziyyət çəkir. Ona görə vəziyyəti təhlil edərkən siz, ilk növbədə, vətəndaşları narahat edən məsələləri aşkarlamalısınız.

O ki qaldı, infrastruktur layihələrinə, üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələrinin böyük hissəsi öz həllini tapıb. Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda, beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerlərdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulan investisiyalardır. Ona görə infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Ona görə sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, artıq bu möhkəm təməl üzərində öz işinizlə rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz. Eyni zamanda, bütün işlər ədalətli görülməlidir. Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə, ilk növbədə, bunu icra başçıları, icra strukturları etməlidirlər.

Əlbəttə, Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım göstəririk. Bu yardım insanları bu ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır.

*Ardı Səh. 3*

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Əbülfəs Qarayevin Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Əbülfəs Mürsəl oğlu Qarayev Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsindən azad edilib.

***

Prezident İlham Əliyev Elçin Rzayevin İmişli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, Sərəncama əsasən, Elçin Adil oğlu Rzayev İmişli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Prezident İlham Əliyev Seymur Orucovun Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, Sərəncama əsasən, Seymur Vaqif oğlu Orucov Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.

***

Əbu-Dabinin vəliəhdi, Silahlı Qüvvələrin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Al Nahyan Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

***

Prezident İlham Əliyev "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Çex Respublikasının Prezidenti Miloş Zeman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

***

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerdən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

***

Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesdən Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

***

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş Naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid Al Maktum Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

# “Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır”

*Prezident İlham Əliyev Seymur Orucovu Ağstafa, Elçin Rzayevi isə İmişli rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib*

Əvvəli Səh. 2

Biz bunu edirik ki, insanlar bu vəziyyətdən çıxsın və az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda, koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq və siz də yerlərdə Azərbaycan dövlətinin nümayəndələrisiniz. Ona görə sizin işinizdən, eyni zamanda, ümumiyyətlə, Azərbaycanda görülən işlər haqqında da təsəvvür yaranır. Əgər icra hakimiyyəti başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər? Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin.

İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol verməmək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol verməmək olmaz.

Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə, müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məhsuldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir. Keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim Sərəncamımla xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları mənə təqdim edilib. Biz bunu deməli olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldurlar və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma yerlərdə siz bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Çünki biz əgər ancaq bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Eyni zamanda, suyun ədalətli bölüşdürülməsi məsələsi də çox aktualdır. Çünki mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, ancaq kənar adamlara su verilmir. Bu, ədalətsizlikdir və buna son qoyulmalıdır.



> “Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır”

Ödənişli ictimai iş yerlərinin yaradılması artıq bir neçə ildir ki, təmin edilir və biz bu kateqoriyaya aid olan insanların sayını ildən-ilə artırırıq. Biz 30 mindən başlamışıq. Bu il mənim göstərişimlə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu istiqamətdə artıq nəticələr vardır. Ancaq əfsuslar olsun ki, bəzi icra başçılarının cinayətkar əməllərinə görə, bu sahə də ən korrupsiyalaşmış və ən çirkin sahəyə çevrilib. O işlərə cəlb edilən insanların ödəniş kartları icra başçıları tərəfindən oğurlanırdı. Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır. Xüsusilə pandemiya dövründə bütün ölkələrdə iş yerləri ixtisar edilir, bütün ölkələrdə işsizlik artır, o cümlədən Azərbaycanda. Belə bir vəziyyətdə kasıb insanın puluna göz dikmək vicdansızlıqdır və cinayətdir. Ona görə bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, onlar ümumi nəzarət və eyni zamanda, monitorinq aparsınlar. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bu işləri ciddi təhlil edin, görün nə qədər insan cinayətkar icra başçıları tərəfindən bu imkandan məhrum edilib. Biz bu ədaləti bərpa etməliyik.

Bir sözlə, sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb, 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı demək olar ki, yenidən qurulub. Biz qazlaşdırmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz mənim bilavasitə göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər, hansı daşı daş üstünə qoyublar. İndi bütün bu işlər təftiş edilir. Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yeni, qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ki, ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulubdur. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Dəməli insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcək. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır.

Bölgələrdə gedən işlər daim mənim nəzarətimdədir. Mənim çoxsaylı səfərlərim, eyni zamanda, o məqsədi güdür ki, görülmüş işlərin icrasını görüm, tanış olum və insanları narahat edən problemləri insanlardan eşidim və biz bunları həll edək. Amma deyə bilərəm ki, bir çox hallarda icra hakimiyyəti başçısı öz iş otağından çıxmır. Bütün icra hakimiyyəti başçıları, o cümlədən siz bütün kəndlərdə insanlarla görüşməli, insanları narahat edən problemləri insanların dilindən eşitməli və ondan sonra qərar qəbul etməlisiniz. Elə məsələ var ki, sadəcə olaraq, laqeydlik, biganəlik və məsuliyyətsizlik ucbatından həll olunmur. Elə məsələ var ki, heç böyük vəsait, böyük əziyyət tələb etmir. Sadəcə, onların vecinə deyil. Onlar hesab edirlər ki, orada ağa kimi rəhbərlik etməlidirlər, insanları incitməlidirlər, öz şəxsi maraqlarını təmin etməlidirlər. Belə təfəkkürlə yaşayan insanların bizim aramızda yeri yoxdur. Onların yeri başqa yerdədir. Ona görə, siz bütün kəndlərdə olmalısınız, bütün problemləri vətəndaşlardan öyrənməlisiniz və onları həll etməlisiniz. Bir daha demək istəyirəm ki, yerli səviyyədə həlli mümkün olmayan problemlər dərhal müvafiq mərkəzi icra orqanlarına çatdırılmalıdır.

Bu gün Azərbaycan yeniləşir, müasirləşir və yeni kadrlardan çox şey asılıdır. Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların inamı, əhval-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı olsunlar.

Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaq. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

X X X

Elçin Rzayev: Möhtərəm cənab Prezident, göstərdiyiniz bu böyük etimada görə Sizə dərindən təşəkkür edirəm. Bu etimaddan irəli gələn məsuliyyəti dərinliyini dərk edərək, Sizi əmin etmək istəyirəm ki, üzərimə düşən, dövlətimizə bağlı vəzifələrin həyata keçirilməsinə və qarşıya qoyulan məqsədlərə ləyaqətlə nail olmaq üçün yorulmadan var qüvvəmlə çalışacağam. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ ol.

X X X

Seymur Orucov: Möhtərəm cənab Prezident. Mən də bu çox böyük və məsuliyyətli etimada görə öz adımdan və Yeni Azərbaycan Partiyasının gəncləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu etimad mənim timsalımda YAP gənclərinə olan etimaddır. Bu etimad bütün Azərbaycan gəncliyinə böyük stimuldur. Siz dəfələrlə öz çıxışlarınızda demisiniz ki, Azərbaycan gəncliyinə güvəniniz və etimadınız böyükdür.

Gənclərin bu gün ölkənin ictimai-siyasi həyatında fəal olmasının əsası Ulu Öndərimiz tərəfindən qoyulmuşdur. Çünki möhtərəm cənab Prezident, 1990-cı illərin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC-Müsavat dövründə Azərbaycan gəncliyini zorla ali təhsil ocaqlarından, iş yerlərindən mitinq bölgələrinə və onların yarıtmaz liderlərinə dəstək tədbirlərinə aparırdılar. Gənclərimiz çox bədbin ruhda idilər. Lakin Ulu Öndərimiz hakimiyyətə gəldikdən sonra Azərbaycan gəncliyində gənclik ruhu özünə qayıtdı. Ulu Öndər bütün Azərbaycan gəncliyini vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Siz də bu gün bu siyasəti yeni üslubda, çox möhtəşəm formada həyata keçirirsiniz.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan gəncliyi Sizə borcludur. Ona görə borcludur ki, Siz bizi dövlət orqanlarında önə çəkirsiniz. Bununla bərabər, Siz və Birinci vitse-prezidentimiz biz gənclərin, Azərbaycan xalqının canını da qoruyursunuz. Çünki bu gün dünyada baş verən bəladan göründü ki, bir çox dövlətlər var idi, böyük dövlətlər, onlar bu prosesi Sizin qədər dəqiq, vaxtında, az itki ilə idarə edə bilmədi. Bu da Sizin liderlik xüsusiyyətinizdən irəli gəlir. Çünki lider çox çətin gündə bilinir. Biz gənclər bununla fəxarət hissi keçiririk. İstər Türk Şurasının, istərsə də Qoşulmama Hərəkatının Zirvə görüşlərinin keçirilməsi ilə bağlı bütün dövlət və hökumət başçılarının Sizin çağırışınıza səs verməsi, dünyanı bu bəladan birgə qurtarmaq səyləriniz bütün dünyaya nümunədir və Azərbaycanın dünyada artan nüfuzundan xəbər verir.

Möhtərəm cənab Prezident, mən də Sizə söz verirəm ki, var gücümlə Heydər Əliyev siyasətinə xidmət edəcəyəm, rayonun inkişafı və abadlaşması üçün var qüvvəmi səfərbər edəcəyəm və dövlətimə, millətimə, Sizə ləyaqətlə xidmət edəcəyəm. Yolunuz yolumuzdur, cənab Prezident. Bir daha təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev: Sizə uğurlar arzulayıram.

# Leyla Əliyevanın şeirləri Gürcüstan mətbuatında




Gürcüstan Milli Elmlər Akademiyasının nüfuzlu "Ukimerioni" qəzeti tanınmış Azərbaycan şairi, ABŞ xeyriyyə cəmiyyətinin "Ömür açarı" mükafatı və Puşkin adına "Qızıl medal"ın laureatı Leyla Əliyevanın "Qaçırıq, uçuruq, tələsirik", "Zaman", "Mağazalar və restoranlar", "Göz yaşları" kimi şeirlərinə geniş yer ayırıb.

Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, şeirləri gürcü dilinə tanınmış gürcü şairi, Gürcüstan Yazıçılar Birliyinin sədri Makvala Qonaşvili tərcümə edib. Qeyd edək ki, 30 illik fəaliyyəti dövründə qəzet, mütəmadi olaraq tanınmış dünya ədiblərinin yaradıcılığına yer ayırır.

## Azərbaycanda əhalinin sayı 10 milyon 79 min 956 nəfərə çatıb



İlin əvvəlindən ölkə əhalisinin sayı 12 min 848 nəfər və ya 0,1 faiz artaraq 2020-ci il aprel ayının 1-i vəziyyətinə 10 milyon 79 min 956 nəfərə çatıb. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumatda, həmçinin bildirilib ki, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

## Erməni zabiti yol qəzasında öldü



Ermənistanın Eçmiədzin Zvartnots rayonunda avtomobildə baş vermiş yanğın zamanı ölən və ağır yaralananlar Vazqen Sarkisyan adına hərbi universitetin zabitləridir. AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, Eçmiədzindəki "Bişaryan" mebel salonu yaxınlığında "Mazda" markalı avtomobildə yanğın baş verib. Nəticədə bir nəfər ölüb, üç nəfər xəsarət alıb. Ölən şəxs - 57 yaşlı polkovnik-leytenant Hovik Kosakyan Müdafiə Nazirliyinin Vazgen Sarkisyan hərbi universitetində artilleriya fakültəsinin baş müəllimi, yaralılar isə həmin universitetin müəllimləri 58 yaşlı polkovnik-leytenant Aşot Şekikyan, ehtiyatda olan polkovnik 57 yaşlı Pavel Topçyan və 36 yaşlı Qevorq Harutyunyandır.

Yanğın söndürüldükdən sonra polkovnik-leytenant Hovik Kosakyanın yanmış cəsədi avtomobildən tapılıb.

## Paşinyan etiraf etdi: Ölkədə vəziyyət çox ağırdır!



"Ermənistanda vəziyyət çox ağırdır. Biz çıxış yolu tapmalıyıq". AZƏRTAC xəbər verir ki, bu bəyanatla Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında çıxış edib. Koronavirus pandemiyası dövründə hökumətin iclasında ilk dəfə tibbi maska geyən N.Paşinyan deyib ki, son 24 saat ərzində ölkədə koronavirusa yoluxma ilə əlaqədar 335 fakt qeydə alınıb. Bu virusdan ölənlərin sayı 70 nəfərə çatıb.

Paşinyan əhalini və hökumət üzvlərini məsələyə daha ciddi yanaşmağa, fövqəladə vəziyyət rejiminin tələblərinə əməl etməyə çağırıb. Qeyd edək ki, dünən Ermənistanda 5606 nəfər koronavirusa yoluxan var. Ermənistanda fövqəladə vəziyyət rejimi iyunun 1-dək uzadılıb.

# Azərbaycan ombudsmanı Dağlıq Qarabağda qanunsuz "seçkilərin" keçirilməsinə etiraz olaraq bəyanat yayıb

*Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qanunsuz "seçkilərin" keçirilməsinə və pandemiya dövründə Ermənistan tərəfindən atəşkəs rejiminin mütəmadi pozulmasına etiraz olaraq bəyanat yayıb.*



Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələrinin bölmələrinin cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Respublikasının adsız yüksəkliklərində yerləşən mövqelərini, eləcə də dinc əhalinin yaşayış yerlərini davamlı olaraq atəşə tutaraq atəşkəs rejimini pozması halları bizi dərindən narahat edir.

Pandemiya ilə əlaqədar BMT, Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlar tərəfindən edilən müraciətlərə məhəl qoymayan Ermənistan hökuməti işğalçı və təcavüzkar siyasətinin fonunda təxribatçı hərəkətlərini davam etdirərək regionda daha da təhlükəli vəziyyət yaratmaqdadır. Hər şeydən əvvəl, pandemiya dövründə belə Ermənistan ordusunun atəşkəs rejimini pozmağa davam etməsi münaqişə zonasında yaşayan insanların həyat şəraitini daha da ağırlaşdırır.

Bir müddət əvvəl BMT-nin baş katibi Antonio Quterreş qlobal atəşkəs çağırışı ilə çıxış etmiş, bu kontekstdə olduqca mühüm məqamları diqqətə çatdırmışdı. Baş katibin bəyanatında qeyd edilib ki, zorakı münaqişələrin qurbanı olan köçkünlər və digərləri daha da həssas vəziyyətə düşürlər. "Bu gün dünyanın hər yerində təcili olaraq atəşkəsin bərqərar olmasına çağırıram. Silahlı qarşıdurmalara son qoymaq və birlikdə həyatımızda ən ümdə olan mübarizəyə qarşı səfərbər olmağın vaxtıdır. Döyüşən tərəflərə üz tutub deyirəm. Hücumlardan geri çəkilin. Etibarsızlığı və düşmənçiliyi kənara qoyun. Silahları susdurun, artilleriyanı dayandırın, hava hücumlarını bitirin", - deyə çağırışda vurğulanmışdı. Heç şübhəsiz, beynəlxalq təhlükəsizlik məsələsi və qlobal problem olan pandemiya şəraitində Ermənistanın təxribatçı əməllərini davam etdirərək atəşkəsi dəfələrlə pozması beynəlxalq hüquq normalarının, humanizm prinsiplərinin heçə sayılması ilə yanaşı, BMT-nin baş katibi Antonio Quterreşin məlum bəyanatına saygısız və etinasız münasibətin əyani göstəricisidir.

BMT-nin məcburi köçkünlərin hüquqları üzrə xüsusi məruzəçisi Sesilia Jimenez-Damari COVID-19-la bağlı 2020-ci il aprelin 1-də BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının rəsmi internet səhifəsində yayımlanmış xüsusi bəyanatında pandemiya dövründə qaçqınların tibbi müayinə, su, sanitariya, qida və lazımı yaşayış şəraiti ilə təmin olunmaq baxımından məhdudiyyətlərlə üzləşmə və ayrı-seçkiliyə məruz qalmaq riskinin olduğunu vurğulayıb. Bu məqam diqqətə alınaraq xüsusilə qeyd olunmalıdır ki, hazırda münaqişə zonasına yaxın yaşayış məntəqələrində pandemiya səbəbindən həyat şərtləri daha da ağırlaşıb. Belə ki, həmin ərazilərdə yaşayan insanların təmiz su ilə təmin olunması, dolayısıyla, onların gigiyena və sanitar xidmətlərə əlçatanlığı risk altındadır. Avropa Şurasının Parlament Assambleyasının 2016-cı ildə qəbul etdiyi 2085 saylı qətnamədə işğal olunmuş ərazilərdə və bu ərazilərə qonşu rayonlarda yaşayan əhalini təmiz su ilə təmin edən işğal olunmuş ərazidə yerləşən Sərsəng Su anbarının baxımsız vəziyyətdə olmasının insan həyatı üçün təhlükə yaratdığı və ciddi fəlakətlərə yol açacağı vuğulanır. Təəssüflə qeyd olunmalıdır ki, işğal faktının fonunda Sərsəng Su anbarının baxımsız vəziyyətdə olması həmin ərazilərdə yaşayan soydaşlarımızın həyat və sağlamlığını pandemiya dövründə daha böyük risk altına salıb.

Xatırlatmaq vacibdir ki, Ermənistan hökümətinin BMT-nin 822, 853, 874 və 884 saylı qətnamələrini və ümumilikdə, beynəlxalq hüququn tələblərini heçə sayaraq işğalçılıq siyasətini davam etdirməsi nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və 7 ətraf rayonu hələ də işğal altındadır. Ermənistanın etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, onların fundamental hüquqları kütləvi şəkildə kobudcasına pozulub. Təcavüz nəticəsində, həmçinin 20 mindən çoc günahsız insan, o cümlədən uşaqlar, qadınlar və qocalar xüsusi qəddarlıqla qətlə yetirilib, minlərlə insan girov götürülərək işgəncələrə məruz qalıb.

Qeyd etmək istərdik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri vəziyyəti məhz "hərbi işğal" kimi müəyyən etmiş, Avropa İnsan Hüquqları Məhkəməsi isə "Çıraqov və başqaları Ermənistana qarşı" işi üzrə verdiyi qərarda işğal edilmiş ərazilərimizə effektiv nəzarətin məhz Ermənistan respublikası tərəfindən həyata keçirildiyini təsbit edib. Eyni zamanda, Avropa İttifaqı və Avropa Şurası tərəfindən qəbul olunmuş qətnamə, qərar və tövsiyələrdə Azərbaycan torpaqlarının işğal olunması və həmin ərazilərə separatçı qüvvələrin nəzarət etməsi faktları təsbit olunub.

Bunlarla yanaşı, dünyanın COVID-19 infeksiyası ilə mübarizə apardığı bir dövrdə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində Ermənistan tərəfindən qeyri-qanuni "seçkilərin" və qondarma "andiçmə" şousunun təşkili də bu ölkənin işğalçı siyasətinin və separatizmə dəstək xarakterli destruktiv mövqeyinin növbəti bariz nümunəsi, beynəlxalq hüquq normalarının kobud surətdə pozulması faktıdır. Qondarma "seçkilər" Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn norma və prinsiplərinə tamamilə ziddir, hər hansı bir hüquqi qüvvəsi yoxdur və beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə və birmənalı olaraq rədd edilib.

Dünya ictimaiyyətini, xüsusilə də nüfuzlu beynəlxalq qurumları respublikamızın BMT tərəfindən tanınmış ərazilərinin işğaldan azad olunması, Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə layiqli hüquqi qiymət verilməsi və beynəlxalq hüquq normalarının pozulmasının qarşısının alınması, eləcə də Dağlıq Qarabağ münaqişəsi nəticəsində soydaşlarımızın pozulmuş fundamental hüquq və azadlıqlarının bərpası istiqamətində müvafiq səylərlə çıxış etməyə, zəruri addımlar atmağa və təxirəsalınmaz tədbirlər görməyə çağırıram".

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNECKO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

# Vətəndaşlar Prezidentə yazırlar: "Gördüyünüz işlər xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır"

***Koronavirus pandemiyası dövründə Azərbaycan əhalisinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması istiqamətində gördüyü mühüm işlərə görə Prezident İlham Əliyevə respublikamızın bütün guşələrindən minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir qismini təqdim edir.***



Zəngilan rayonundan məcburi köçkün, 8-ci sinif şagirdi Murad Şirinov yazır: "Möhtərəm cənab Prezident, biz məktəblilər Sizi çox sevirik, Sizdən daim valideyn qayğısı görürük. Sizə olan hisslərimiz o qədər güclüdür ki, onları sözlə ifadə etməyə çətinlik çəkirik. Bizə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirik. Sizin qayğınıza cavab olaraq dərslərimizi yaxşı oxuyacağımıza, Vətənə layiq övlad kimi böyüyəcəyimizə söz veririk. Allah Sizi, ailənizi və xalqımızı qorusun!".

Kəlbəcər rayonundan məcburi köçkün Elmir Cəfərov: "Hörmətli cənab Prezident, Sizin sayənizdə Azərbaycan koronavirus pandemiyasına qarşı vaxtında ciddi tədbirlər gördü. Rəhbərliyinizlə bütün səylər birləşdirilərək məqsədyönlü, düşünülmüş fəaliyyət strategiyası quruldu və pandemiyaya qarşı mübarizədə uğur qazanıldı. Pandemiya vaxtında Azərbaycan xalqına göstərdiyiniz maddi və mənəvi dəstəyə görə şəxsən öz adımdan və ailəmin adından Sizə təşəkkür edir, hörmət və ehtiramımızı bildiririk. Xalqımız, o cümlədən məcburi köçkünlər hər zaman Sizi dəstəkləyir və uğurlu fəaliyyətinizlə fəxr edirlər. Allah Sizi qorusun!".

Laçın rayonundan məcburi köçkün Elçin Zeynalov: "Hörmətli cənab Prezident, Azərbaycan ulu öndərimiz Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünya dövlətləri arasında tanındı. Biz fəxr edirik ki, bu gün həmin siyasəti Siz layiqincə davam etdirirsiniz.

Cənab Prezident, dünyamız gözəgörünməz bəla ilə mübarizə aparır. Digər ölkələr bu bəladan ağır itkilər verdiyi halda, Siz Azərbaycan xalqını qorudunuz. Xalqımız seçimində yanılmadığı üçün qürur hissi keçirir. Siz öz əməlinizlə, zəhmət və uzaqgörənliyinizlə xalqımızı bu bəladan xilas etdiniz. Özünü güclü sayan dövlətlərin koronovirus epidemiyasının qarşısında aciz qaldığı bir vaxtda Sizin gördüyünüz tədbirlər Azərbaycan xalqını zəfər qələbəsinə yaxınlaşdırır. Bu yorulmaz fəaliyyətə görə Sizə və Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə tezliklə bu bəlaya qalib gələrək torpaqlarımızı da azad edəcək, bayrağımızı Qarabağdakı, Laçındakı zirvələrdə ucaldacağıq. Biz buna əminik".

Xəzər rayonunun Binə qəsəbəsindən məktəbli Nərmin Nəsirova: "Hörmətli cənab Prezident, biz məktəblilər Sizin "Evdə qal!" çağırışınıza əməl edərək məktəblərə getmədik, dərslərimizə evdə davam etdik, onlayn dərslər keçdik. Evdə qalsaq da, məyus olmadıq. Bilirik ki, Siz bizim sağlam və xoşbəxt böyüməyimiz üçün yorulmadan çalışırsınız. Buna görə də Sizi çox sevirik. Ailə üzvlərimiz də Sizin qərarlarınızı bəyənir və dəstəkləyir. Mən onların adından da Sizə təşəkkür edir, yeni uğurlar arzulayıram".

Xocalı rayonundan məcburi köçkün, Qarabağ əlili Elmira Bağırovanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, mən Sizə Xocalı rayonundan olan məcburi köçkünlərin minnətdarlığını çatdırıram. Bu ağır və çətin günlərdə bizə göstərdiyiniz qayğı misilsizdir. Xalqa göstərdiyiniz bu qayğı heç vaxt unudulmayacaq. Bu fədakarlığınız xalqın Sizə olan inamını daha da artırdı. Siz bu qayğılı günlərdə bizim yanımızda oldunuz. Biz də həmişə Sizin yanınızda olacağıq. Sizinlə fəxr edirik".

Xankəndi şəhərindən Vasif Allahverdiyev: "Hörmətli cənab Prezident, bütün dünyada və eləcə də ölkəmizdə yaranmış bu gərgin vəziyyətdə hər bir vətəndaşın yanında oldunuz və bizə nə qədər yüksək dəyər verdiyinizi bir daha sübut etdiniz. Bunun üçün Sizə minnətdarlığımı bildirirəm və əminliklə deyirəm ki, verdiyiniz ağıllı qərarlar sayəsində hamımızı bu çətin vəziyyətdən xilas edəcəksiniz. Biz qarabağlılar torpaqlarımızın düşmən işğalından azad olunacağı günü də səbirsizliklə gözləyirik və Sizə inanırıq. Allah Sizə cansağlığı versin!".

Gəncə şəhərindən Aydın Murovdağlı yazır: "Möhtərəm cənab Prezident, bəşəriyyətin XXI yüzilliyin birinci yarısında düçar olduğu, heç bir müasir texnologiya və silahla susdurulması mümkün olmayan, inkişaf etmiş, supergücə malik dövlətlər tərəfindən belə ram edilə bilməyən, böyük insanlığı naçar vəziyyətdə qoyan, yeni əsrin yeni bəlası adlandırılan koronavirusun hökm sürdüyü çox ağır bir məqamda bir ölkə vətəndaşı, ziyalısı olaraq xalqının taleyini hər şeydən üstün tutan, hamının sevimlisi olan, uzaqgörən, xeyli dərəcədə tədbirli ölkə başçısına üz tuturam. Siz bütün dəyərlərə yiyələnən, humanizmi, mərhəmət hissini, ədalət prinsipini, böyük insan amilini öz şəxsiyyətində cəmləşdirən, intellektual düşüncəyə önəm verən, mükəmməl qətiyyətə və iradəyə malik lidersiniz. Yaşadığımız bu günlərdə qabaqlayıcı tədbirləriniz, tapşırıqlarınız, son dərəcə mütərəqqi ideyalarınızla bunu bir daha sübut etdiniz. Siz böyük cəsarətlə, inam hissinin gücü ilə nümayiş etdirdiniz ki, insan kapitalı Azərbaycan xalqının timsalında Sizin üçün çox önəmlidir. Məhz Sizin azad, demokratik və müstəqil dövlətimizə ideal rəhbərliyiniz sayəsində dünyanı ağuşuna alan, ölkəmizdən də yan keçməyən, vurğuladığınız kimi, gözəgörünməz düşmən olan koronavirus Azərbaycanda kütləviləşə bilmədi. Xalqla dövlətin monolit, fundamental birliyini inamla ortaya qoydunuz. Ona görə də Siz ən böyük mükafata, ən sürəkli alqışlara, ən isti təşəkkürlərə layiqsiniz. Dünyada xalqın sevgisindən, məhəbbətindən böyük mükafat yoxdur. Siz bu yüksək mükafata dönə-dönə layiq görülmüsünüz. Azərbaycan xalqının bir sıravi vətəndaşı olaraq mən də öz növbəmdə Sizə təşəkkürlərimi yetirirəm. Fəxr edirəm ki, azərbaycanlıyam, fəxr edirəm ki, Sizin kimi Prezidentim var. Ulu Tanrı Sizi Qorusun! Yaşasın Müstəqil Azərbaycan, yaşasın Prezident İlham Əliyev!".

Qəbələ rayonundan İvan Şabanov və Elnarə Şərifova yazırlar: "Möhtərəm cənab Prezident, dünyanı bürüyən koronavirus pandemiyası ilə bağlı gördüyünüz işlər və xüsusi karantin rejiminin tətbiqi bu xəstəliyin Azərbaycanda geniş yayılmasının qarşısını aldı. Qabaqlayıcı tədbirlərə, həmçinin işləməyən şəxslərə 190 manat birdəfəlik ödənişin verilməsinə, aztəminatlı ailələrə isə ərzaq yardımının göstərilməsinə görə rayonumuzun sakinləri adından Sizə minnətdarıq. Biz Sizinlə fəxr edirik. Allahdan Sizə cansağlığı diləyirik. Əminik ki, Sizin sayənizdə Qarabağımız da tezliklə işğaldan azad olunacaq".

Şəmkir rayonunun sakini Mehdi Həsənov: "Hörmətli cənab Prezident, internet saytlarından, mətbuatdan görürük ki, respublikanın müxtəlif bölgələrindən Sizə ünvanlanan təşəkkür məktublarının sayı-hesabı yoxdur. Xalqımızın koronavirus pandemiyası ilə mübarizədə az itki verməsi, kütləvi yoluxmanın müşahidə edilməməsi Sizin gərgin əməyinizin nəticəsidir. Respublikamızın başı üzərini qara bulud kimi alan pandemiya inanırıq ki, tezliklə tam aradan qaldırılacaq.

Əziz Prezidentimiz, şəmkirlilərin Sizə və Mehriban xanım Əliyevaya olan hörmət və rəğbəti sonsuzdur. Allah Sizlərə uzun ömür, cansağlığı versin!".

Tərtər rayonunun sakini B.Nəzərov: "Möhtərəm cənab Prezident, dünyada yayılmış koronavirus pandemiyası ilə mübarizə şəraitində işçilərin işdən azad olunmaması, ixtisara salınmaması, əməkhaqlarının əvvəlki qaydada ödənilməsi, işsiz kimi qeydiyyata alınmış şəxslərə 190 manat vəsait verilməsi, sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, kommunal ödənişlərdə güzəştlərin nəzərdə tutulması və digər sosial müdafiə üzrə ciddi addımlarınız təqdirəlayiqdir. Kənd təsərrüfatının inkişafı üçün edilmiş güzəştlər, bu sahədə çalışanlara şərait yaradılması kənd təsərrüfatının inkişafına böyük dəstəkdir. Biz də öz növbəmizdə Vətənimizin rifahı üçün var qüvvəmizlə çalışır və bu çətin günlərdə bizə olan qayğı və diqqətə görə Sizə dərin təşəkkürümüzü bildiririk".

Goranboy şəhərindən 2-ci sinif şagirdi Mələk Mollayeva: "Hörmətli cənab Prezident, Siz, xalqımızla birlikdə məni, qoca nənəmi, anamı qorudunuz, bizi xəstələnməyə qoymadınız. Mən ailə üzvlərimlə birgə hər gün televiziyada xəbərləri izləyirəm. Görürəm ki, dünyanın bir çox ölkələrində hər gün çoxlu sayda insan koronavirus səbəbindən həyatını itirir. Ölkəmizdə isə vəziyyətin yaxşı olduğunun şahidiyəm.

Mən bu dünyada 5 nəfəri ən çox istəyirəm: Sizi, Mehriban xanımı, anamı, nənəmi və dayımı. Mən də böyüyəndə Sizin kimi insanları sevəcəyəm və xeyirxah olacağam. Bizi qoruduğunuz üçün Uca Tanrı da Sizi qorusun!".

Kürdəmir şəhərindən şəhid atası Bahadur Paşayev: "Hörmətli cənab Prezident, mən, şəhid atası Bahadur Paşayev Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizə və ailənizə uzun ömür, cansağlığı arzulayıram. Şəhid ailəsi olaraq biz dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunmuşuq. Şəhidlərin ruhuna böyük ehtiram bəslənilməsi, onların ailələrinə qayğı ilə yanaşılması indiki gənc nəslin vətənpərvərlik ruhuna da müsbət təsir göstərir. Gənclər Vətən yolunda şücaət göstərən şəxslərin heç vaxt unudulmadığını görür və bütün bunlardan ibrət götürürlər. Sizin göstərişlərinizə uyğun olaraq, mənim ailəm üçün hazırda ev tikilir. Şəhid ailəsi adından bir daha Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident. Allah Sizi və Azərbaycanımızı qorusun!".

Göygöl rayonundan Fizuli Mirzəyev, Samir Mahmudov və Emilya Rəfibəyli yazırlar: "Hörmətli cənab Prezident, Sizin tapşırığınızla görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, Azərbaycanda koronavirus pandemiyası tam nəzarət altındadır. Halbuki, dünyanın ən inkişaf etmiş ölkələrində virusa yoluxma və xəstəlikdən ölüm halları dəfələrlə çoxdur. Siz hər zaman vurğulayırsınız ki, "Mən hər bir azərbaycanlının Prezidentiyəm və hər bir azərbaycanlının yanındayam". Biz də bunu həmişə hiss edirik. Bu çətin dövrdə Sizin xalqın yanında olmağınız buna bariz nümunədir. Bütün bunlara görə Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun kollektivi adından Sizə, eyni zamanda, Sizinlə çiyin-çiyinə çalışan, xalqına diqqət və qayğısını əsirgəməyən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirik. Biz də öz üzərimizdə çalışaraq hər zaman Prezidentimizə, dövlətimizə və xalqımıza şərəflə, layiqli şəkildə xidmət edəcəyik. "Biz birlikdə güclüyük!" çağırışınız işimizdə bizlərə stimul olacaq".

*Ardı Səh. 6*

# Vətəndaşlar Prezidentə yazırlar: "Gördüyünüz işlər xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır"

Əvvəli Səh. 5

Füzuli rayonundan Mübariz Bayramov, Kamran Qasımov, Vüsal Baratlı, Afərim Abbasova, Aminə Quliyeva, Vilayət Sadıqov və Kənan Məmmədli yazırlar: "Möhtərəm cənab Prezident, biz - cəbhə bölgəsində yaşayan məcburi köçkünlər inanırıq ki, Sizin sayəsində koronavirus epidemiyasına tezliklə qalib gələcəyik. Tapşırığınıza əsasən yaşı 65-dən yuxarı vətəndaşlara, o cümlədən imtiyazlı ailələrə ərzaq yardımlarının verilməsi, yüz minlərlə işsiz və aztəminatlı ailəyə karantin dövründə 190 manat məbləğində pul vəsaitinin ödənilməsi sübut edir ki, Sizin yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!". Allah Sizi və ailənizi qorusun!".

Ağdam rayonundan Nargilə Məmmədova: "Hörmətli cənab Prezident, Ağdam rayonundan məcburi köçkün olduqdan sonra 6 nəfərlik ailəmlə Yevlax rayonunun ərazisində məskunlaşmışdıq. Daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Respublikanın belə çətin günlərində ailəmiz yenə Sizin qayğınızı gördü. Bu günlərdə yeni evlə təmin olunmağımız hər birimizin böyük sevincinə səbəb oldu. Allah da Sizi və xalqımızı sevindirsin, daim üstünüzdə yar olsun! Bu qayğıya görə ailəmizin adından Sizə minnətdarlığımızı bildirir, bol uğurlar arzulayıram".

Abşeron rayonundan Tural Hüseynzadə: "Hörmətli cənab Prezidentimiz, COVID-19 pandemiyasının ölkəmizdə yayılmasının qarşısını almaq məqsədilə xalqımızın sağlamlığını ön plana alaraq çəkdiyiniz zəhməti yüksək qiymətləndirir və Sizə yeni uğurlar arzu edirik. Biz virusdan qorunmaq üçün evdə oturduğumuz zaman Siz bizim sağlamlığımız üçün əvvəlkindən daha çox çalışmaqda davam edirsiniz. Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva da Sizinlə birlikdə çalışır. Bütün bunlar üçün Sizə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanıma dərin təşəkkürümü bildirirəm".

Zərdab rayonunun sakinləri Aqil İbadov, İlhamə İbadova, Ramal İbadov, Jalə İbadova və Tünzalə Cəbrayılova yazırlar: "Hörmətli cənab Prezident, Siz ulu öndər Heydər Əliyev məktəbinin yetirməsisiniz. Azərbaycan Respublikasının Prezidenti seçildiyiniz ilk gündən apardığınız uğurlu siyasət nəticəsində ölkəmizin qüdrəti gündən-günə möhkəmlənir, regionlarımız inkişaf edir.

Cənab Prezident, ölkə vətəndaşlarının rifahının daim yüksəlməsi, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atdığınız addımlar etibarlı sabahımıza hesablanıb. Bu addımlar xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır. Bütün dünyanı ağuşuna alan koronavirusla mübarizədə xalqımızın yanında olmağınız Sizin Vətənə bağlılığınızın sübutudur. Bu bəlanın qarşısının alınması üçün həyata keçirdiyiniz addımlara, ölkə vətəndaşlarına göstərdiyiniz maddi və mənəvi dəstəyə görə Sizə və Mehriban xanıma dərin təşəkkürümüzü bildiririk. Mən və ailə üzvlərim Sizin siyasətinizi dəstəkləyir və daim Sizinlə birlikdə olduğumuzu bildiririk".



Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Balakən rayon şöbəsinin üzvləri A.Abdullayev, R.Anayev, M.Eminov, Ş.Qımrıyev və R.Balayev yazırlar: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin uğurlu daxili və xarici siyasətiniz sayəsində dövlətimiz güclənməklə yanaşı, öz müsbət imicini gündən-günə daha da artırır. Planetimizə qatı duman kimi çökən koronavirusla mübarizə tədbirlərinin səmərəli təşkili və məqsədyönlü fəaliyyətiniz bu istiqamətdə növbəti addım oldu. Bu işləri biz zabitlər də yüksək qiymətləndiririk. Hər bir göstəriş və çıxışlarınız alqışlayırıq. Siz hər bir vətəndaşa doğma və dayaq olduğunuzu bir daha sübut etdiniz. Siz xalqımızın sağlamlığı naminə ölüm kabusu ilə çarpışan həkimlərimizin əməyinə layiqli qiymət verdiniz. Siz, eyni zamanda, ordumuzun güclənməsi, ehtiyatda olan veteranların və əlillərin, şəhid ailələrinin sosial ehtiyaclarının həlli üçün çox çalışırsınız. Biz Sizinlə birgə koronavirus, eləcə də torpaqlarımıza soxulan erməni virusu üzərində parlaq qələbə qazanacağıq.

Möhtərəm Ali Baş Komandan, Sizə bu çətin anlarda böyük iradə və möhkəm cansağlığı arzulayırıq".

Masallı şəhərinin sakini Xanməd Həşimov: "Əziz Prezidentimiz, dünyanı cənginə almış koronavirus pandemiyasından Azərbaycan xalqını uzaqgörən siyasətiniz və müdrikliyiniz sayəsində qoruduğunuza görə Sizə minnətdarıq. Baxmayaraq ki, bir çox böyük və güclü ölkələr ağır vaxtda xalqının sağlamlığından çox dövlətinin iqtisadiyyatını fikirləşdilər, Siz Vətənin mənafeyini, xalqın sağlamlığını əsas tutdunuz, bizi bu bəladan qorudunuz. Hər çıxışınızdan, müraciətinizdən, atdığınız hər addımınızdan güc-qüvvət alırıq. Sizin sayənizdə dünya Azərbaycan Respublikasının gücünün bir daha şahidi oldu.

Cənab Prezident, Siz ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq Azərbaycanı çiçəkləndirir, inkişaf etdirir və zənginləşdirirsiniz. Əhalinin rahat və firavan yaşaması üçün əlinizdən gələni edirsiniz. Azərbaycanın hər yerində gözəl və rahat yollar, fasiləsiz işıq və qaz, təmiz içməli su, təzə və təmirli məktəblər, sosial infrastruktur obyektləri və xalqa saymaqla bitməyən digər xidmət nümunələri vardır. Hər zaman bizim qayğımıza qaldığınıza görə Sizə və ailənizə sonsuz hörmətimi və təşəkkürümü bildirirəm. Allah Sizi, ailənizi və Vətənimizi qorusun"!.

Şirvan şəhərindən Rəşad Qafarov: "Hörmətli cənab Prezident, dünyanın hər yerində koronavirus bəlasının tüğyan etdiyi zamanda Sizin Azərbaycan xalqının rifahı, xoşbəxtliyi və sağlamlığı naminə atdığınız qətiyyətli addımlar əvəzedilməzdir. İnsanlara edilən yardım aksiyaları qayğınızın həddi-hüdudunun olmadığını bir daha göstərir. Sizin Azərbaycanın inkişafı uğrunda qətiyyətli addımlarınıza xalqımız tam dəstək verir. Bu birlik var olduqca millətin qəhrəman ruhunu heç bir qüvvə sarsıda bilməz. Allah Sizi qorusun, işlərinizdə, həyatınızda Sizə yeni uğurlar nəsib etsin!".

Bakı şəhərindən müəllim Sədaqət Həsənova: "Hörmətli cənab Prezident, artıq uzun müddətdir ki, koronavirus adlanan qorxunc düşmən dünyanın ən nəhəng dövlətlərini belə diz çökdürüb. Bu xəstəlik bizim ölkəmizdən də yan keçməyib. Lakin bu virusun dünyaya yayıldığı ilk günlərdən Sizin səyləriniz nəticəsində bu bəlaya qarşı kəskin mübarizə başlandı. Azərbaycanımızda ilk olaraq bu bəlanın qarşısını almaq məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq etdiniz. Azərbaycan ilk olaraq ÜST-ə 5 milyon dollar maliyyə yardımı etdi. Ölkə daxilində bütün xəstəxanalar hazır vəziyyətə gətirildi. Əlavə olaraq, xüsusi təyinatlı xəstəxanalar tikildi. Bu iş indi də davam etdirilir. Sizin gördüyünüz tədbirlər nəticəsində yüzlərlə vətəndaşımız sağalaraq normal həyata qayıdıb. Bu günə qədər dünya ölkələri sırasında ən az itki verən dövlətlər sırasındayıq. Xaricdə yaşayan soydaşlarımızın çoxu dərhal ölkəmizə gətirildi. Aztəminatlı ailələrə maddi və ərzaq yardımları edildi. Bu işlər hazırda da davam etdirilir. Bütün bunlarla yanaşı, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələri işləyir, yaşayış üçün heç bir çətinlik yoxdur.

Cənab Prezident, məktəblər müvəqqəti bağlansa da, biz müəllimlər xüsusi proqramlarla dərslərimizi davam etdiririk və bu işləri axıra kimi görəcəyik. Sizin "Mən hər bir azərbaycanlının Prezidentiyəm" sözləriniz bu gün də özünü təsdiq etdi. Biz ziyalılar həmişə olduğu kimi, bu gün də Sizin yanınızdayıq. Biz Sizə inanırıq və Sizinlə bu gözəgörünməz düşmənə qalib gələcəyik. Pis günün ömrü az olur və çətinliklər tezliklə geridə qalacaq. Sizin rəhbərliyinizlə qarşıda bizi gözəl günlər gözləyir. Ulu Tanrı Sizi qorusun!".

Şəmkir rayonundan Binnət Namazov və Dursun Quliyeva: "Möhtərəm cənab Prezident, mənim 68, həyat yoldaşımın 65 yaşı var. Bu çətin, xəstəliyin tüğyan etdiyi bir dövrdə ahıl insanlara göstərdiyiniz qayğı dünyaya örnək olacaq addımdır. Sizin "Biz birlikdə güclüyük!" çağırışınıza əməl etməklə vətəndaşlarımız çətinlik və bəlalara qarşı mübarizədə Sizinlə həmrəy olduqlarını, ətrafınızda sıx birləşmək əzmlərini bir daha nümayiş etdirdilər. Bütün bunlar sübut edir ki, apardığınız müdrik siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Siz xalqın qəlbində əbədi yer tutmuş insansınız. Biz şanslıyıq ki, Sizin kimi müdrik və uzaqgörən bir rəhbərimiz, qəlbi hər bir vətəndaşın ürəyi ilə döyünən Prezidentimiz var. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma ailəmiz adından təşəkkürümüzü bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirik. Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!".

Gəncə şəhərindən tələbə Oktay Məmmədzadə: "Möhtərəm cənab Prezident, koronavirus infeksiyasına qarşı mübarizədə bütün dünya ölkələri çətinlik çəkir. Sizin uzaqgörənliyiniz və müdrikliyiniz sayəsində bu gün ölkəmiz bu virusla mübarizədə yüksək nəticə göstərir və demək olar ki, biz bu görünməz düşmənə qalib gəlmişik. Sizin iqtisadi və siyasi sahələrdə yürütdüyünüz düzgün siyasət, həyata keçirilən qabaqlayıcı tədbirlər xalqımızın bu bəladan az itkilərlə çıxmasına səbəb oldu. Siz bu çətin pandemiya dövründə də Azərbaycan xalqının sağlamlığını düşünürsünüz. Bizdə Sizinlə fəxr edirik.

Cənab Prezident, belə bir vəziyyətdə xalqın yanında olduğunuz üçün Sizə və Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm".

Ağdaş rayonundan Fərid Rəhimli: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, hər zaman Azərbaycan xalqını düşündüyünüzə, onun qayğısına qaldığınıza, qətiyyətli addımlar atdığınıza görə bir hərbçi və sıravi vətəndaş kimi Sizinlə qürur duyur, fəxr edirəm. Biz Sizinlə güclüyük və daim güclü olacağıq. Xalqımız üçün etdiyiniz fədakarlığa görə minnətdarlığımı bildirərək hər zaman əmrinizə müntəzir olduğumu bildirirəm".

Bərdə rayonundan Nəbi Əsədov: "Hörmətli cənab Prezident, mən bu məktubumla Sizin siyasətinizi dəstəklədiyimi, gördüyünüz işlərlə qürur duyduğumu bildirmək istəyirəm. Bu çətin günlərdə xalqımızı qoruduğunuza, onun qayğısına qaldığınıza görə Siz mənim qəhrəmanımsınız. Mən Şuşadan məcburi köçkün olsam da, Şuşanı görməmişəm. Bərdə rayonunda məskunlaşmışam. Amma əminəm ki, qəhrəman Prezidentimin sayəsində ata-babalarımın yurdu Şuşanı görəcəyəm və orada bayrağımızı dalğalandıranlardan biri olacağam. Sizə inanırıq, güvənirik, cənab Prezident".

Zaqatala rayonunun sakini: "Hörmətli cənab Prezident, Siz gənclərin fəaliyyətinə böyük önəm, yüksək qiymət verirsiniz. Gənclər də Sizin fəaliyyətinizin əsas dəstəkçiləri, davamçılarınızıq. Gənclər ictimai həyatda çox fəal rol oynayır, bununla da özlərini Sizin köməkçiləriniz sayırlar.

Cənab Prezident, pandemiyanın Azərbaycanda aşkar olunduğu ilk gündən Siz bütün qüvvələri insanların sağlamlığının qorunmasına yönəltdiniz, yaranmış vəziyyəti ciddi nəzarətə aldınız. Bir gənc olaraq Sizin bütün qərarlarınıza, addımlarınıza görə Sizə təşəkkür edir və Sizinlə qürur duyuruq".

# Hikmət Babaoğlu: "Azərbaycanın həyata keçirdiyi sosial siyasət ən nümunəvi təcrübələrdən hesab edilə bilər"

***"Bu gün dünyada baş verən sosial iqtisadi kataklizmlər kontekstində dövlətlərin sosial siyasəti və sosial təşəbbüsləri bir növ sınaq mərhələsindən keçir. Ayrı-ayrı ölkələrin fərqli təcrübəsi yaranır. Ancaq heç də bunların hamısı uğurlu təcrübə hesab edilmir.***



Bu baxımdan Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasət ən nümunəvi təcrübə və təşəbbüslərdən biri hesab edilə bilər. Bu siyasətin başlıca istiqamətini isə Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü, bizim siyasətimizin əsasında Azərbaycan vətəndaşının rifahı dayanır. Ona görə də Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində mütəmadi olaraq işlər görülür". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı, politoloq Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, nəticədə bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sistemi formalaşdırıb: "İcra olunan sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Bu baxımdan DOST Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Elə yeni açılan 3 saylı DOST mərkəzi də paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərməklə vətəndaş məmnunluğunu artıracaq, sosial siyasətin həyata keçirilməsini asanlaşdıracaq innovativ mexanizm rolunu oynayacaq. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcək. Göründüyü kimi bu mərkəzlərin sosial xidmət funksiyaları ilə yanaşı digər başqa əhəmiyyətli istiqamətləri də vardır ki, bunlar da özlüyündə həmin mərkəzlərin iş yeri rolunu oyanmaları, könüllülük prinsipi əsasında kadr hazırlığı funksiyasını da yerinə yetirə bilməsidir. Bu kadrların əksəriyyətini isə gənclər təşkil edir. Çünki gəclər yeni texnologiyaların idarəolunması peşəkarlıqlarına sahib olmaqla yanaşı həm də yeni idarəetmə təfəkkürünün daşıyıcılarıdır".

H.Babaoğlu vurğulayıb ki, bu faktorla ölkəmizdə həyata keçirilən islahatlar kontekstində yüksək qiymətləndirilir: "Təsadüfi deyil ki, Prezident İham Əliyev məhz bu məsələlərə diqqət çəkərək bildirdi ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda, gənclər xoşagəlməz hallara qarşı da mübarizədə bizə böyük dəstək olurlar. Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək. Göründüyü kimi yeni DOST mərkəzinin açılması təkcə sosial xidmətələr həyata keçirən qurumun açılışı deyil, eyni zamanda ölkəmizdə həyata keçirilən islahatlar kontekstində ən peşəkarların idarəetməyə cəlb edilməsidir. Nəzərə almaq lazımdır ki, bundan sonra da istər Bakıda, istərsə də regionlarımızda yeni belə xidmət mərkəzlərinin açılması nəzərdə tutulur ki, bu da miqyası daha da genişləndirəcək".

***Aysel Məmmədova***

# İsrail televiziya kanalında Arye Qutun çıxışı İsrailin erməni icmasını yerindən oynatdı

***Dünya birliyi bir neçə gün bundan əvvəl ağır pandemiya şəraitində faşizm üzərində Qələbənin 75 illiyini qeyd etdi. Bizim hamımızı ümumi keçmiş birləşdirir və biz babalarımızın, ulu babalarımızın müharibə illərində göstərdikləri qəhrəmanlıqlara layiq olmalıyıq.***

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut bu fikirləri İsrailin 9-cu Televiziyasının "Gün" informasiya-analitik proqramında çıxış edərkən və Ermənistanın baş naziri Nikol Paşinyanın babasının kollaborasionist olması və Njdenin rəhbərliyi altında erməni legionunda xidmət etməsi barədə məlumatları şərh edərkən söyləyib.

Arye Qut qeyd edir ki, o, bir israilli və sovet ordusunun zabitinin nəvəsi kimi öz babasına görə fəxarət hissləri keçirir. "Lakin mənim babam qazanılan qələbə ilə yanaşı, yəhudi xalqının tarixində qorxunc və dözülməz faciəyə çevrilən dəhşətli Holokost soyqırımının da şahidi olub. Mənim babam bu soyqırımı zamanı bütün ailəsini, hazırkı Ukraynanın ərazisində yaşayan bütün doğmalarını itirib. O, cəbhədə olduğuna görə sağ qalmışdı. O, Vətənini müdafiə edərək, Zaporojyedən Berlinədək getdi, lakin öz doğmalarını qoruya bilmədi", - Arye Qut vurğulayır.

İsrailli ekspert qeyd edir ki, 9 May ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyan özünün babası - Nikol Paşinyanın şəklini paylaşaraq bu sözləri yazıb: "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyasının 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda ölənlərə əbədi eşq olsun".

Məlum olub ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babası İkinci Dünya müharibəsi zamanı faşistlərlə və nasistlərlə əməkdaşlıq edən kollaborasionist olub. Ermənistanın baş nazirinin "Facebook"da öz babasına həsr etdiyi postdan sonra erməni jurnalistlər tərəfindən onun babasının şəxsiyyətinin araşdırılması nəticəsində əldə edilmiş məlumatlar ictimaiyyətə təqdim olunub.

Arye Qut qeyd edir ki, xüsusən "Iravunk.com" saytı bu mövzuya "Düşmənlə əməkdaşlıq edib, həlak olub": baba Nikol Paşinyan haqqında məlumatlar" adlı məqalə həsr edib. Lakin baş nazirin paylaşımından dərhal sonra çoxsaylı şərhlərdə göstərilir ki, Nikol Vartanoviç Paşinyan nasist ordusunun sıralarında, məhz Qaregin Njdenin rəhbərlik etdiyi legionda vuruşub.

Arye Qut "Gün" informasiya-analitik proqramında çıxış edərkən vurğulayıb ki, əvvəlki Sarkisyan rejimi faşistlərə Qaregin Njde ləqəbi altında xidmət edən faşist cəlladı və satqını Qaregin Ter-Arutyunyana Yerevanın mərkəzində 6 metrlik abidə ucaldıb. "Əfsuslar olsun ki, Ermənistanın yeni hakimiyyəti bu abidəni




sökmədi. Rəsmi Yerevan artıq birinci il deyil ki, faşist və antisemit Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə məşğuldur", - deyə beynəlxalq münasibətlər sahəsində israilli ekspert, ictimai xadim Arye Qut qeyd edib.

Arye Qutun sözlərinə görə, xalqların öz tarixlərini, tarixi keçmişini təfsir etmək və özlərinin milli qəhrəmanlarının xatirəsini əbədiləşdirmək kimi suveren hüquqlarına heç kim qarışmır. "Lakin dəhşətli Holokost cinayətlərində əli olan adamlar milli qəhrəmanlar kimi qələmə veriləndə biz susmamalıyıq.

Bu gün artıq sirr deyil ki, faşizm ideologiyası, faşist Almaniyası ilə sıx əməkdaşlıq edən erməni faşist və nasistlərin qəhrəmanlaşdırılması Ermənistanda dövlət səviyyəsində təbliğ edilir, onlara abidələr qoyulur, küçələrə, təhsil müəssisələrinə, strateji mərkəzlərə onların adı verilir. Faşizmin, antisemitizmin və terrorizmin populyarlaşdırılması Cənubi Qafqazın bu ölkəsində dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilib. Ən dəhşətli və ürəkbulandırıcı odur ki, faşizm ideologiyası "Njdeizm" adı altında Ermənistanda tədris müəssisələrinin proqramına salınıb və gənc nəsil bu "dəyərlər" ruhunda tərbiyə olunur", - deyə israilli ekspert qeyd edir.

"Yaradıcılarından biri faşist Njde olan 20 minlik erməni legionunun İkinci Dünya müharibəsi zamanı törətdiyi qəddarlıqları tarix və yəhudi xalqı heç vaxt unutmayacaq. Arxiv sənədləri ilə təsdiqlənən tarixi faktlar mövcuddur. Başda general Njde olmaqla erməni legionunun məqsədi yəhudilərə və alman ordusu üçün "yararlı olmayan" digərlərinə qarşı basqınlar törətmək, onları məhv etmək idi.

Məhz erməni legionunun fəaliyyəti nəticəsində Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, həmçinin Qərbi Krımın digər rayonları yəhudilərdən tamamilə təmizlənib. Bütün bunlardan sonra biz müasir Ermənistanda erməni faşisti və antisemitinin milli qəhrəman dərəcəsinə qaldırılmalarına etinasız baxa bilərikmi?", - deyə Arye Qut sual verir.

İsrailli ekspert qeyd edir ki, müasir Ermənistanın bu siyasətini gec açılan bomba adlandırmaq olar. Çünki bu ideologiya ilə böyüyən gənclik gələcəkdə faşizmi və terrorizmi davam etdirəcək.

Ertəsi gün İsrailin erməni icması sərt reaksiya verib, Arye Qutun ölkənin Doqquzuncu televiziya kanalında çıxışını pisləyərək israilli eksperti "provokasiyada", Ermənistanın hazırkı rəhbərinin faşist babası, "Ermənistanın milli qəhrəmanı" və Vermaxtın erməni legionu haqda "yalan xəbərlər" yaymaqda təqsirləndirib.

İsrail-Ermənistan parlament lobbisinin sabiq rəhbəri Aleksandr Sinker İsrailin Doqquzuncu televiziya kanalında çıxış edərək, beynəlxalq münasibətlər sahəsində ekspert Arye Qutun təqdim etdiyi faktlar qarşısında heç bir ciddi tarixi və ya siyasi əks-dəlil qoya bilməyib. Onun 6 dəqiqəlik çıxışı belə adlandırılan Ermənistan-İsrail əməkdaşlığının perspektivlərinə və guya Azərbaycan ilə Arye Qutun İsraillə Ermənistan arasındakı münasibətlərin gələcəyinə "qibtə etmələri"nə həsr olunmuşdu. Arye Qutun fikrincə, İsraildə hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Azərbaycan-İsrail münasibətləri nikbin xarakter daşıyır və strateji tərəfdaşlıq səviyyəsindədir.

# Musa Quliyev: "DOST mərkəzlərinin fəaliyyəti onun uğurlu layihə olduğunu sübut edir"



Prezident İlham Əliyev innovativ texnologiyaların tətbiq edilməsini ölkəmizin islahat proqramında prioritet məsələlərdən biri hesab edir. Xidmətin bu cür təşkili bürokratik maneələri aradan qaldırır, vətəndaşların rahatlığına və məmnunluğuna səbəb olur. Buna misal olaraq ASAN xidmətin yaranmasını göstərmək olar və kommunal layihələr bir mərkəzdən idarə olunmaqla öz həllini tapır. Sosial xidmət sahəsində isə innovativliyin yaranması məhz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi vasitəsilə həyata keçirilir. DOST mərkəzlərinin yaradılması bu sahədə əhaliyə göstərilən sosial xidmətin operativliyini, etibarlılığını, vətəndaşlarla dövlət qurumları arasında ünsiyyət və təmasların minimuma endirilməsi məqsədi daşıyır. Bir il əvvəl fəaliyyətə başlayan DOST mərkəzləri bu vəzifənin öhdəsindən uğurla gəlir və ona bəslənilən ümidləri doğruldur. Burada əhaliyə göstərilən xidmətlərdən məmnunluq dərəcəsinin də 96 faiz olması bu layihənin uğurunun göstəricisidir. Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Bakının Nizami rayonunda istifadəyə verilən 3 saylı DOST mərkəzinin açılışı ilə əlaqədar AZƏRTAC-a verdiyi müsahibədə söyləyib.

Komitə sədri deyib: "Nizami rayonunda yeni istifadəyə verilən mərkəz artıq ölkəmizdə üçüncüdür və paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaşa xidmət edəcək.

Yeni açılan DOST mərkəzlərində "bir pəncərə" prinsipli ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək. 2006-cı ildə ünvanlı sosial yardım almaq üçün vətəndaş müxtəlif ünvanlardan 16 sənəd toplayıb təqdim etməli idi. Bu gün vətəndaş yalnız bir sənəd - ailə tərkibi haqqında arayışla yazdığı ərizəni əlavə etməklə bu yükdən qurtulmuş olur. Qalan digər məlumatları mərkəz elektron hökumət vasitəsilə əldə edəcək. Bu, o deməkdir ki, innovativ texnologiyaların tətbiqi həyatımızı yaxşılaşdırır, sosial müdafiəni gücləndirir, vətəndaş və dövlət arasındakı münasibətləri daha da möhkəmləndirir. Bu cür layihələrin həyata vəsiqə alması bir daha sübut edir ki, həmin layihələrin hamısının arxasında əhalinin sosial rifahını yüksəltmək, ona göstərilən sosial xidmətin keyfiyyətinin yaxşılaşdırılması və vətəndaş məmnunluğuna nail olmaq dayanır. Bu cür xidmətlər vasitəsilə vətəndaşlar pandemiya dövründə evdə oturaraq bir sıra sosial və kommunal xidmətlərlə təmin olundu. Həm də yeni texnologiyaların tətbiqi ölkəmizdə həyata keçirilən müasir yeniliklərin üstünlüklərini, həyata keçirilən siyasətin doğruluğunu sübut etdi".

# Ölkəmizdə ordu quruculuğunun davamlı olması qürurverici amildir

***Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə, güclü sosial bazaya, ruh yüksəkliyinə malik olan Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad etməklə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi, müqəddəs vəzifənin icrasına tam hazırdır. Buna hər kəs əmin ola bilər. Ordumuz bu əminliyi, inamı doğrultmaq qüdrətinə malikdir.***

Bu fikirlər hərbi jurnalist İsa İsmayılovun “Ölkəmizdə ordu quruculuğunun davamlı olması qürurverici amildir” sərlövhəli yazısında yer alıb. AZƏRTAC həmin məqaləni təqdim edir.



Son bir neçə ildə ordu quruculuğunda görülən işlərə nəzər salsaq, təhlillər aparsaq, görərik ki, yola saldığımız illər bizim üçün səmərəli, nailiyyətlərlə dolu və ordu quruculuğu prosesində başucalığı gətirən dövr olub.

Ordu quruculuğunun bizim üçün ən başlıca və prioritet məsələ olduğunu vurğulayan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin birbaşa rəhbərliyi və tapşırığına əsasən kompleks şəkildə aparılan islahatlar Silahlı Qüvvələrdə bütün istiqamətləri əhatə edə bilib. Bunun nəticəsidir ki, ordumuz aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməyə nail ola bilib və güclü ordularla bir cərgədə dayanmağa layiq olduğunu sübut edib.

Ali Baş Komandanın atdığı uğurlu addımlar sayəsində Azərbaycanın iqtisadi qüdrətlənməsi ölkəmizdə bütün sahələrdə inkişafa təkan verdiyi kimi, hərbi büdcəmizin də sürətlə yüksəlməsinə, qısa zaman kəsiyində 20 dəfədən çox artmaqla üç milyardı ötməsinə səbəb oldu. Bu istiqamətdə artım tendensiyasının ölkəmizdə davamlı olması da qürurvericidir.

Son bir neçə il ərzində ordumuzun silahlanmasına yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu proses mərhələlərlə, planlı surətdə həyata keçirilməkdə davam edir. Odur ki, bu gün ordumuzun qüdrətinə şübhə etməyə, ağız büzməyə cürət edənlərə, köhnəlmiş hərbi texnika alınır deməyə ürəyi gələnlərə istifadəmizdə olan bəzi döyüş texnikalarını sadalamaqla tutarlı cavab vermək istərdim:

“RM 70/85”, “Qasırğa”, “Ekstra”, “Polonez”, “LORA” və s. kimi raket silahlanma sistemləri, 2 S31 “Vena”, “DANA”, “TOC-1A Solntsepyok”, “MSTA-S”, 2A 36 “Geasint” və s. kimi artilleriya və minaatan sistemləri, “SPAYK” və “XRİZANTEMA-S” kimi tankəleyhinə idarəolunan raket kompleksləri, T-90S tankları, BMP-3, ZTR 82 A və s. kimi zirehli-döyüş texnikaları, “BELL-412”, “MD-530” və “Mİ-35” helikopterləri, “AEROSTAR”, “HERON”, “ORBİTER” və başqa PUA-lar və s. kimi aviasiya döyüş texnikası, dünyada tanınmış müxtəlif qabaqcıl dövlətlərin istehsalı olan müxtəlif hava hücumundan müdafiə üçün silahlanma sistemləri, rabitə və radioelektron mübarizə vasitələri... Daha nələr, nələr! Odur ki, bu gün ordumuzun qüdrətindən şübhə ilə danışmaq insafsızlıq, ədalətsizlik, diletantlıq, ən əsası isə düşmənçilik, qərəzçilik əlamətindən başqa bir şey deyildir.

Azərbaycan Ordusunda aparılan islahatlar, döyüş qabiliyyətinin yüksəlməsi üçün qəbul edilən qərarların nə dərəcədə düzgün, əhəmiyyətli, uğurlu olmasına 2016-cı ilin aprel ayında həyata keçirilən əks-həmlə əməliyyatının və Günnüt əməliyyatının qələbəmizlə başa çatması buna ən dolğun əyani sübut, bariz nümunədir. Heç kimdə şübhə olmasın ki, Ali Baş Komandanın əmri ilə ordumuz hələ dəfələrlə qələbələr əldə etməklə ötən zamandan, keçirilən təlimməşqlərdən, ayrılan vəsaitindən nə dərəcədə səmərəli bəhrələndiyini sübut edəcək.



Aprel döyüşlərində minə yaxın düşmən öldürüldü və yaralandı, 30-dək tank və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, düşmənin müdafiəsi yarıldı, o, geri çəkilməyə məcbur oldu və torpaqlarımızın bir qismi azad edildi.

Aprel zəfəri və Günnüt əməliyyatı ilə xalqımıza qələbə sevincini yaşadan ordumuza isə ən böyük qiyməti və dəyəri “Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir” sözləri ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev verib. Verilən bu qiymətdən qürurlanan Azərbaycan hərbçiləri, eyni zamanda, ona etimad göstərildiyini, üzərlərinə ərazi bütövlüyümüzün təmin edilməsi kimi müqəddəs vəzifə düşdüyünü də bir anlıq unutmurlar. Bu etimadı, bu vəzifənin müqəddəsliyini və nə qədər şərəfli olduğunu düzgün dərk edən şəxsi heyət irimiqyaslı təlimlərdə, çöl çıxışlarında günbəgün döyüş qabiliyyətini yüksəldərək, mənəvi-psixoloji hazırlığını daim artırmaqla, peşəkarlığını təkmilləşdirərək Vətən qarşısında borcunu şərəflə yerinə yetirməkdə davam edir. Dövlətimizin qayğısından, xalqımızın sevgisindən ruhlanan ordumuz torpaqlarımızı inamla qoruyur və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi naminə daha da əzmlə öz döyüş qabiliyyətini artırmaqda davam edir.

Yuxarıda qeyd edilən tapşırıqların yerinə yetirilməsində Hərbi Hava Qüvvələrinin böyük rolu da danılmazdır. Bunu nəzərə alaraq Ali Baş Komandanın tapşırığına əsasən, ordumuzun daim modernləşdirilməsi çərçivəsində Hərbi Hava Qüvvələrinin idarəetmə sisteminin təkmilləşdirilməsi, modernizasiyası, yenilənməsi və dünya standartları səviyyəsinə çatdırılması, hava hücumundan müdafiə sisteminin eşalonlaşdırılması istiqamətində də böyük işlər görülüb və Müdafiə Nazirliyinin fəaliyyət planına əsasən bu proses bu gün də məqsədyönlü şəkildə, ölkəmizin yerləşdiyi regionun xüsusiyyətləri nəzərə alınmaqla davam edir.

Ən müasir və yüksək texnologiyalar əsasında yaradılmış avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilən yeni Qırıcı Aviasiya Bazası və Radiolokasiya hərbi hissəsinin Birləşmiş Komanda Məntəqəsinin istifadəyə verilməsi, respublikamızın müxtəlif bölgələrində hava hücumundan müdafiə bölmələrinin yeni məntəqələrinin yaradılması, “İldırım” və modernləşdirilmiş S-125, eləcə də digər zenit raket komplekslərindən döyüş atışlarının icrası bu istiqamətdə görülən işlərin cüzi bir qismi, həyata keçirilən tədbirlərin müəyyən bir parçasıdır. Ümumi proseslərə nəzər saldıqda isə əminliklə deyə bilərik ki, müasir texnoloji avadanlıqla təchiz edilən Hərbi Hava Qüvvələrimiz özünəməxsus bütün komponentlərə - döyüş növbətçiliyinin yüksək səviyyədə aparılması, qüvvələrin qısa müddətdə döyüşə hazır vəziyyətə gətirilməsi, həmçinin istənilən iqlim, hava şəraitində və sutka ərzində düşmənin hava hədəflərinin izlənilməsi, kəşfiyyat məlumatlarının toplanması, təhlili, qərarların dəqiq, vaxtında qəbulu, bütün hədəflərin dərhal, dəqiqliklə məhv edilməsi və aviasiya qüvvələrinin bütün döyüş tapşırıqlarının səmərəli icrasını təmin etmək imkanına tam malikdir. Bu gün ordumuzun üzərində çalışdığı ən mühüm istiqamətlərdən biri də müasir döyüş taktikasına uyğun olaraq, düşmənlə birbaşa təmasa girmədən onun qüvvə və vasitələrini məhv etmək, hərbi strukturlarını iflic vəziyyətinə salmaqla onun canlı qüvvəsinin maksimum demorali-

# Ölkəmizdə ordu quruculuğunun davamlı olması qürurverici amildir






zə olunmasına nail olmaqdır. Və tam səmimiyyətlə deyə bilərik ki, bu istiqamətdə böyük uğurlara artıq imza atmışıq.

Heç kimə sirr deyil ki, son illər Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə uğurla fəaliyyət göstərir və ordumuzu keyfiyyətli məhsullarla təmin edir.

İki nazirlik arasında imzalanan anlaşma memorandumuna əsasən bölmələrimiz yerli istehsal olan “Zərbə” və kəşfiyyat-müşahidə xarakterli pilotsuz uçuş aparatları ilə təmin ediləcək, həmçinin yüzlərlə yeni növ kamikadze tipli PUA hərbi hissələrimizin istismarına veriləcəkdir.

Heç kimə sirr deyil ki, Azərbaycanın hərbi sənaye zavodlarında bütün növ patronlar, tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz uçuş aparatları da daxil olmaqla, mindən artıq çeşiddə müdafiə təyinatlı məhsullar istehsal edilir.

Bütün bunlarla yanaşı, digər dost ölkələrin hərbi sənaye imkanları nəzərə alınmaqla müxtəlif istiqamətlərdə, müxtəlif çeşiddə hərbi təyinatlı məhsulların əldə olunması, modernizasiyası da nəzərdə tutulur və bu proses davamlı xarakter daşımaqdadır. Düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə regionun xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınmaqla ordumuzun silahlanmasına inkişaf etmiş müxtəlif ölkələrdə istehsal olunan yeni, müasir və keyfiyyətli, yüksək dəqiqliyə malik, geniş ərazidə məhvetmə gücündə olan döyüş texnikaları, eləcə də digər hərbi təyinatlı məhsulların daxil edilməsi planauyğun təşkil ediləcəkdir.

Sonda onu da qeyd etmək istərdim ki, bütün bunlar yalnız bir məqsədə xidmət edir Vətən torpaqlarını işğaldan azad etmək. Sadaladığımız bütün bu imkanlara malik olan ordumuz düşmən üzərində qələbə qazanmaqda israrlıdır, əzmlidir və buna qadirdir. Bunu Aprel döyüşlərində darmadağın edilən düşmən anlamışdır və o, bundan nəticə çıxarmaq, torpaqlarımızı sülh yolu ilə tərk etmək məcburiyyətindədir. Aprel döyüşlərini unutmamaqla, növbəti döyüşlərdə onları nələrin gözlədiyini düşmənin artıq anlamaq və təsəvvür etməyin vaxtı çoxdan gəlib.

Heç şübhəsiz işğalla heç vaxt barışmayacaq ölkəmizdə ordu quruculuğu Ali Baş Komandanın tapşırığına əsasən növbəti illərdə də prioritet sahələrdən biri olaraq qalacaqdır. Müasir silahlara, ən qabaqcıl hərbi-texniki vasitələrə, güclü sosial bazaya, ruh yüksəkliyinə malik olan Azərbaycan Ordusu işğal altında olan torpaqları azad etməklə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi, müqəddəs vəzifənin icrasına tam hazırdır. Buna hər kəs əmin ola bilər. Ordumuz bu əminliyi, inamı doğrultmaq qüdrətinə malikdir.

## Volkan Aydemir: Qarabağda keçirilən saxta “seçkilər” Ermənistanın cinayətkar siyasətinin davamıdır




Azərbaycanın işğal olunmuş ərazilərində ermənilər tərəfindən yaradılan qondarma “dövlət”ə “rəhbər” seçilməsi və saxta “andiçmə” mərasiminin qardaş ölkə mədəniyyətinin beşiyi olan Şuşada keçirilməsi beynəlxalq hüquqa ziddir. Bu, nəinki Azərbaycana qarşı törədilmiş növbəti təxribat, eyni zamanda, bölgədə, eləcə də dünyada sülh və sabitliyə təhdiddir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin Kocaeli Derince Azərbaycan Evi Dərnəyinin rəhbəri Volkan Aydemir bildirib.

Bütün dünyanın Qarabağın əzəli Azərbaycan torpağı kimi tanıdığını vurğulayan dərnək rəhbəri deyib: “Bir sıra dövlətlər və beynəlxalq təşkilatlar “seçki” şousunu qınayaraq, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini, bu seçkiləri tanımadıqlarını və bunun Azərbaycana qarşı açıq-aşkar təxribat olduğunu bildiriblər. Onlar bu “seçkilər”i və onların nəticələrini qeyri-qanuni hesab edərək, bunu bölgədə sülhə və sabitliyə qarşı məsuliyyətsiz siyasi addım, Qarabağ probleminin sülh yolu ilə həllinə ciddi manеə kimi qiymətləndiriblər.

Yalnız Ermənistan rəhbərliyi, onun tərəfdarları və erməni lobbisi tərəfindən dəstəklənən, başqa heç bir beynəlxalq təşkilat və ya ölkə tərəfindən tanınmayan bu “seçkilər”, eyni zamanda, beynəlxalq hüquqa ziddir. Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara mənfi təsir göstərən bu addım erməni tərəfinin həqiqi niyyətini bir daha ortaya qoyur. Qeyri-qanuni parlament tərəfindən keçirilən saxta “seçkilər” Ermənistanın sülh danışıqlarında beynəlxalq birliyi aldatmağa çalışdığını sübut edir. Buna görə də dünya dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanı beynəlxalq hüquq normalarına hörmətlə yanaşmağa məcbur edərək, işğalçı ölkəyə daha ciddi sanksiyalar tətbiq etməlidirlər. Biz bunu separatçı rejimin, xüsusilə Xocalıda dinc sakinləri vəhşicəsinə qətlə yetirən Ermənistanın cinayətkar siyasətinin davamı kimi qəbul edir, bu təxribatçı hərəkətləri qətiyyətlə pisləyirik”.

## Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib



Mayın 21-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlayn iclasda komitənin sədri Ziyafət Əsgərov iclasın gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında” Sazişin təsdiq edilməsi barədə” qanun layihəsi və “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş”ə Əlavə Protokolun təsdiq edilməsi barədə” qanun layihəsi daxildir.

Komitə sədri məlumat verib ki, birinci sənəd Azərbaycan və Türkiyə arasında uzun illər mövcud olan dostluq əlaqələri çərçivəsində hərbi əməkdaşlığı daha da möhkəmləndirmək və Azərbaycan Ordusunun inkişafına töhfə vermək məqsədi daşıyır. İkinci sənəd isə iki ölkə arasında təhlükəsizlik üzrə əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edir. Fikir mübadiləsindən sonra hər iki sənəd Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub. Onlayn iclasda komitə üzvləri Hikmət Məmmədov, Aqil Abbas, Əminə Ağazadə, Kamal Cəfərov, Elşad Mirbəşiroğlu, Oqtay Əsədov, Nurlan Həsənov, Erkin Qədirli, Elman Məmmədov, Aydın Mirzəzadə, Arzu Nağıyev, Bəxtiyar Sadıqov və Nizami Səfərov iştirak ediblər.

## “Gənclər cənab Prezidentə sadiqdir”



“Son illərdə icra olunan sosial islahatlar proqramının əsas hədəfi dövlətin sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Bu baxımdan Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü olan DOST layihəsi əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

O bildirib ki, DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, cənab Prezident İhlam Əliyevin rəhbərliyi altında aparılan islahatların əyani təzahürüdür: “Bu layihə sosial təminat sahəsində inqilabi bir yenilikdir ki, bu sahə üzrə də Azərbaycan liderlik nümayiş etdirir. Bu mərkəzlər eyni zamanda cənab Prezident tərəfindən uğurla həyata keçirilən gənclər siyasətinə də bilavasitə xidmət edir. Belə ki, DOST mərkəzində çalışan insanların demək olar ki, hamısı gənclərdir. Gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün onlara geniş imkanlar yaradılır. Belə ki, gənclər nazir, icra başçısı kimi mühüm vəzifələrə təyin olunurlar. Bu isə onu göstərir ki, bu gün cənab Prezident tərəfindən gənclərə böyük etimad var”.

Politoloq söyləyib ki, məsələyə geniş kontekstdən yanaşdıqda, hər bir hakimiyyət sütununun əldə etdiyi uğurların əsasında geniş və qlobal miqyasda fəaliyyət göstərməyi bacaran, keçmişlə gələcəyin analizini sistemli şəkildə apara bilən, siyasi savada və müxtəlif xarici dil biliklərinə malik olub ölkəsinin haqlı səsini beynəlxalq kürsülərdən dünyaya çatdırmağı bacaran dinamik, aktiv, milli-mənəvi dəyərlərə sadiq gənclərin olması vacibdir: “Gənclərlə çoxsaylı görüşlər keçirən ölkə başçımız da həmişə onları bilik əldə etməyə, yaxşı oxumağa, yaxşı peşəkar olmağa və öz fəaliyyətləri ilə ölkəmizin inkişafına daha böyük xidmət göstərməyə səsləyir. Bu etimada sadiq olan biz gənclər də bilik, peşəkarlıq, yenilik, müasirlik kimi ən yüksək meyarlara cavab verməyə çalışırıq. Eyni zamanda, biz gənclər sadəcə xoş günlərdə deyil, çətin günlərdə də, bütün xoşagəlməz hallarda da cənab Prezidentimizin yanındayıq, Ümummilli lider Heydər Əliyev siyasətinə və bu siyasi kursun layiqli davamçısı İlham Əliyev cənablarına sadiqik. Bizə göstərilən etimadın fərqindəyik və bu etimada dərin sədaqətlə bağlıyıq”.

Ş. Həsənova qeyd edib ki, gənclər müstəqil Azərbaycanın ilk qığılcımları, sinəsində vətənpərvərlik hissi olan, Qarabağ ağrı-acısını lap körpəliyindən ağ vərəq kimi beyinlərinə həkk edən bir nəsildir: “Dövlət idarəçiliyində savad və peşəkarlıqla bərabər bu xüsusiyyətlər də olduqca əhəmiyyətlidir. Axı səngərdə döyüşən zaman əsgərə ən son məqamda savadı yox, məhz canından keçməyə hazır olacaq cəsarəti lazım gəlir. Bu baxımdan hər bir gənc kadrın qəlbində böyük Azərbaycan sevgisinin olması əsas şərtlərdəndir. Bununla yanaşı, bir faktı da unutmaq olmaz ki, Azərbaycan mühafizəkar, böyük-kiçik məsələsinə önəm verən bir cəmiyyətdir. Biz gənclər bu məsələyə xüsusi həssaslıqla yanaşmalıyıq. Çünki bizim də dövlət idarəçiliyində böyüklərimizin təcrübəsindən öyrənəcəyimiz çox şey var”.

O vurğulayıb ki, DOST mərkəzlərinin xidmət məqsədindən əlavə başqa yararlı məqsədləri də var: “Belə ki, mərkəzlərdə 130 nəfərdən çox işçi və “Könüllü DOST” proqramı üzrə 50 könüllünün çalışması nəzərdə tutulur ki, bu da əhalinin məşğulluğunun artırılması işinə xidmət edəcək. Bütün dünyada durğunluğun hökm sürdüyü bir zaman kəsiyində əhalinin məşğulluğunun artırılması, yenə dövlətin prioritet istiqamətlərindən biridir. Bundan əlavə, nəzərə alsaq ki bu mərkəzlərdən 5-i Bakıda, 26-sı isə regionlarda olacaq o zaman düşünürəm ki, bu mərkəzlər bilavasitə region əhalisinin, gənclərinin məşğulluğunun artırılmasına da töhfə verəcək”.

# Bəzi bölgələrdə havanın temperaturu 36 dərəcəyə yüksələcək

***Azərbaycanda mayın 22-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.***

Havanın temperaturu Abşeron yarımadasında gecə 15-18°, gündüz 24-28° isti, Bakıda gecə 16-18°, gündüz 26-28° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Mayın 22-də Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər duman olacaq, qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 31-36° isti, dağlarda gecə 7-12°, gündüz 18-23° isti olacağı ehtimal edilir.



Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, mayın 22-də Abşeron yarımadasında temperaturun iqlim norması daxilində tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 28-33° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 30-35° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 29-34° isti, dağlarda gecə 5-10°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 31-36° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı proqnozlaşdırılır. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 15-17°, gündüz 25-30° isti, dağlarda gecə 12-14°, gündüz 22-27° isti olacağı gözlənilir.

# Prezidentin növbəti Avropa zəfəri:
# "Şərq Tərəfdaşlığı"nda yeni mərhələ

***Nəhayət, sükut pozuldu. Qlobal koronavirus pandemiyasının yaratdığı geosiyasi və informasiya burulğanı fonunda Avropa İttifaqı (Aİ) da daxil olmaqla, böyük güclərin xarici siyasətdə atacaqları konkret addımlar sanki "yaddan çıxmışdı". Dövlət başçıları əsasən pandemiyanın meydana gətirdiyi yeni dünya mənzərəsini analiz etməyi və ondan çıxış yollarını axtarmağı önə sürürdülər. Reallıqda isə həmin güclər heç biri praktiki təkliflə çıxış etmirlər.***




Nəticədə, dünya geosiyasi qarışıqlığın və risklərin getdikcə artdığı meydanı xatırladır. Bunun fonunda Aİ-nin "Şərq Tərəfdaşlığı" proqramı ilə bağlı atdığı addımlar ekspertlərin marağına səbəb olub. 2020-ci ildən sonra həmin istiqamətdə Brüsselin nəzərdə tutduğu əməkdaşlıq şərtləri üzərində geniş dayanmağa ehtiyac gördük. Bu məsələni Azərbaycanın "Şərq Tərəfdaşlığı" proqramının üzvü kimi yeritdiyi siyasət işığında silsilə yazılarda araşdırmağı vacib sayırıq.

## 2009-cu ildən başlanan yol: Azərbaycanın düzgün əməkdaşlıq kursunun bəhrələri kontekstində

Bunun fonunda mayın 11-də Brüsseldə Avropa İttifaqı Şurasının "Şərq Tərəfdaşlığı" siyasəti ilə bağlı yeni sənəd təsdiq etməsi geosiyasi analiz həvəskarları üçün "göydəndüşmə" oldu. Dünya mediası dərhal bu məsələni hərtərəfli araşdırmağa başladı. Təbii ki, Azərbaycan mətbuatı və ekspert dairələri də bu hadisəyə aktiv reaksiya verməli idi. Çünki Azərbaycan Aİ ilə onun Şərq qonşuları arasında siyasi birlik və daha sıx iqtisadi inteqrasiyanın təşviqinə yönəlmiş "Şərq Tərəfdaşlığı" proqramının 6 üzvündən biridir. Və hətta bu proqram çərçivəsində Rusiya və Belarusla bərabər tam müstəqil mövqeyi olan dövlətdir!

Azərbaycan KİV-lərində haqlı olaraq Aİ Şurasının qəbul etdiyi və təsdiqlədiyi yeni sənədin ölkəmizin maraqlarına daha çox cavab verdiyi vurğulanır. Məsələnin bu aspektini, Aİ-nin yeni sənədinin indiki məzmununa gətirib çıxaran mərhələlərin təkamül dinamikasının qısa tarixçəsini araşdırdıqda, daha aydın görmək mümkün olur. Beləliklə, Aİ Şurasının təsdiqlədiyi yeni sənəddə ifadə olunan müddəaların kökündə hansı məqamlar dayanır və onlar hansı dəyişikliklərin diqtəsi ilə formalaşıb?

Məlumdur ki, "Şərq Tərəfdaşlığı" təşəbbüsü Aİ tərəfindən 2009-cu ildə dövriyyəyə daxil edilib. Öncə bu proqram başlıca olaraq postsovet məkanının 6 ölkəsi - Azərbaycan, Ukrayna, Moldova, Ermənistan, Gürcüstan və Belarusla assosiativ üzvlüyə qədər dərin və hərtərəfli əlaqələr qurmaq məqsədi daşıyırdı. Əslində, keçən müddətdə bu məqsəddə elə bir ciddi dəyişiklik olmayıb. Sadəcə, "öncə" sözünü ona görə vurğulayırıq ki, Brüssel bu məqsədə çatmaq üçün o zaman iki prinsipə üstünlük verirdi. Birincisi, proqrama daxil olan ölkələri özünün xarici siyasi məqsədlərinin obyekti kimi qəbul edirdi. Üzv dövlətlərin hansısa ciddi müstəqil marağını çox az düşünür, bəlkə də heç nəzərə almırdı.

2009-cu ildən sonra baş verən geosiyasi proseslər, xüsusilə Rusiyanın fəallığı bu prinsipin tam yanlış olduğunu göstərdi. Lakin bundan əsas olaraq Azərbaycan düzgün və obyektiv nəticə çıxara bildi. Ukrayna, Gürcüstan və Moldova tələsik assosiativ üzvlüyün "ağuşuna atılmaları"nın mənfi nəticələrini hələ də öz üzərlərində hiss etməkdədirlər. Ermənistan isə özünü demək olar ki, beynəlxalq arenada tam biabır etdi. Bir gecənin içində forpost ölkənin rəhbərliyi Aİ-nin ümidlərini puç edərək özünü Kremlin qucağına atdı.

İkincisi, Brüssel "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində üzv dövlətlərə yardımları başlıca olaraq özünün geosiyasi, siyasi və təhlükəsizlik maraqlarına uyğun reallaşdırmağa çalışırdı. Bu zaman həmin təşəbbüsə daxil olan ölkələrin suverenliyi, sosial-iqtisadi və mədəni inkişafda müstəqil addımlar atması Aİ-ni az maraqlandırırdı. Bu isə zaman-zaman bir tərəfdən digər qlobal geosiyasi güclərlə Brüssel arasında, digər tərəfdən isə üzv ölkələrlə Aİ arasında ziddiyyətlərin meydana gəlməsinə səbəb olurdu. Təcrübə göstərdi ki, hər iki səbəbin təsiri çoxdur.

Belə ki, "Şərq Tərəfdaşlığı" ilə bağlı keçirilən sammitlərdə Brüssel mövqeyinə düzəlişlər etdi. Proqramdan üzv dövlətlərin Aİ-yə üzvlüyü məsələsi çıxarıldı. Geosiyasi vəziyyət nəzərə alınaraq daha yumşaq əməkdaşlıq formulu təklif edildi. Bundan başqa, 2013-cü il Vilnüs sammitində Azərbaycan assosiativ üzvlüyü özü üçün normal hesab etməyərək, xüsusi strateji əməkdaşlıq formulunu təklif etdi. Açıq demək lazımdır ki, Bakının bu addımı aydın səmada şimşək effekti yaratdı. Brüssel ciddi surətdə anladı: elə suveren ölkələr var ki, onun hər dediyinə "baş üstə" deməyəcək! Hətta daha müasir, geniş, səmərəli və qarşılıqlı fayda verə bilən model təklif edəbilər! Məhz Azərbaycanın tutduğu prinsipial, qətiyyətli, müasir tələblərə cavab verən suveren mövqeyi Aİ-ni "Şərq Tərəfdaşlığı" proqramı üzərində yenidən düşünməyə vadar etdi. Şübhəsiz, bu, Azərbaycan Prezidentinin əhəmiyyətli diplomatik qələbəsi idi.

## Brüssel düzəliş edir: "Şərq Tərəfdaşlığı" və BMT-nin 2030-cu il hədəfləri

Bütün bunlar Aİ-nin "Şərq Tərəfdaşlığı" proqramı ilə özünün qonşuluq siyasəti arasında daha sıx bağlantı qurmaq cəhdlərində maraqlı ifadəsini tapdı. Və 2015-ci ildə qonşuluq siyasətinə ciddi korrektələr etdi. Brüsselin yeni siyasətində təhlükəsizlik və xarici siyasətin strateji məqsədləri xüsusi yer tutdu. Bununla yanaşı, Aİ-nin davranışında strateji xarakterli bir düzəliş baş verdi. Məsələ ondan ibarətdir ki, Aİ təhlükəsizliyə və xarici siyasətin strateji məqsədlərinə artıq geosiyasi, hərbi və xarici siyasətdə dominantlıq prizmasından deyil, başqa sahələrdə inkişafa və sabitliyə nail olmaq vasitəsilə çatmaq yolunu seçdi. Bunun üçün təşkilat BMT-nin 2030-cu ilə qədər reallaşmalı olan 17 əsas inkişaf istiqamətlərini "çətir" olaraq istifadə etməyə başladı.

BMT-nin həmin inkişaf istiqamətləri sosial, mədəni, iqtisadi və ekoloji sferalarda irəliləyişə və dövlətlərarası əməkdaşlığa nail olmağı nəzərdə tutub ki, bunda son məqsəd bütövlükdə dünyanın dayanıqlı inkişafına çatmaqdan ibarətdir. Bunun üçün 17 istiqamət çərçivəsində BMT 169 vəzifə müəyyən edib. Belə görünür ki, Aİ BMT-dən nümunə götürərək sabitliyi və dayanıqlı inkişaf perspektivini sosial, mədəni, iqtisadi və ekoloji aspektlərdə həm təşkilat daxilində, həm də yaxın qonşularla münasibətlərdə yeni əməkdaşlıq səviyyəsini təmin etməkdə görməyə başladı.

Bu mövqe Azərbaycanın təklif etdiyi əməkdaşlıq formuluna tam uyğun idi və təsadüfi deyil ki, həmin zamandan sonra Brüssel Bakı ilə danışıqlarda daha fəal olmağa başladı. Aparılan danışıqlar hər iki tərəf üçün səmərəli olan xətt üzrə getməkdədir. Onun ilk təsdiqi 2017-ci ilin fevralında Aİ və Azərbaycan arasında yeni hərtərəfli saziş üzrə danışıqlara start verilməsi oldu. 2018-ci il iyulun 11-də isə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Aİ Şurasının sədri Donald Tuskun iştirakı ilə Azərbaycan və Aİ arasında tərəfdaşlığın prioritetləri haqqında sənəd paraflandı.

Brüssel daha tez-tez Azərbaycanla əməkdaşlığın, xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, sosial-iqtisadi sferada əlaqələrin inkişafının strateji əhəmiyyətindən bəhs etdi. Bakıya rəsmi səfərə gələn Aİ-nin yüksək vəzifəli rəsmiləri Azərbaycan Prezidenti ilə əməkdaşlıqda çox maraqlı olduqlarını ifadə etdilər. Azərbaycanın həyata keçirdiyi çoxlu sayda iqtisadi, enerji, mədəni və ekoloji layihələr Aİ-ni Cənubi Qafqazda bu ölkəni əsas tərəfdaş kimi görməyə məcbur etdi. "Şərq Tərəfdaşlığı" proqramının 10 illiyinə həsr edilmiş yubiley sammitində bu, özünü qabarıq surətdə göstərdi. Həmin sammit həm də 2015-ci il Riqa sammitində müəyyənləşdirilən yeni 4 baza əməkdaşlıq istiqamətinin bir daha təsdiqlənməsi zərurətini nümayiş etdirdi. Onu mütləq vurğulamaq lazımdır ki, 2017-ci il beşinci "Şərq Tərəfdaşlığı" sammitində (Brüssel) bu istiqamətlər üzrə 2020-ci ilədək 20 əsas hədəf müəyyən edilmişdi. Məhz onlara qısa nəzər saldıqda 2020-ci ildə "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Aİ-nin siyasətinin məzmununun başlıca məqamları aydın olur.

Beləliklə, 4 əsas istiqamət və 20 hədəf nələrdən ibarətdir? Keçən müddətdə həmin hədəflərə nə dərəcədə nail olundu? 4 prioritet istiqamət kimi aşağıdakılar müəyyənləşdirilib:

1) iqtisadiyyatın möhkəmləndirilməsi (iqtisadi inkişaf və bazar imkanlarının daha da yaxşılaşdırılması);

2) idarəetmə sisteminin möhkəmləndirilməsi (uyğun idarəetmə və idarəçilik institutlarının gücləndirilməsi);

3) qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi (qarşılıqlı əlaqələrin nəqliyyat, enerji, ətraf mühit və iqlim dəyişikliyi sferalarında artırılması);

4) cəmiyyətin möhkəmləndirilməsi (insanlar arasında mobillik və təmasların genişləndirilməsi).

Biz Avropa İttifaqı (Aİ) Şurasının 11 may 2020-ci ildə qəbul etdiyi sənədlə bağlı silsilə yazıların ikincisini təqdim edirik. Bu hissədə bundan öncəki sənəddə müəyyən edilən iyirmi məqsədin necə reallaşdığını və onun yeni sənəddə necə ifadə edildiyini təhlil etməyə çalışacağıq. Bu, sonrakı mərhələdə Aİ-Azərbaycan münasibətlərinin "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində inkişaf dinamikasını daha aydın təsəvvür etmək üçün lazımdır. Eyni zamanda, həmin analizdən sonra Azərbaycan rəhbərliyinin vurğulanan istiqamətdə atdığı səmərəli addımların, həyata keçirdiyi islahatlar proqramının və diplomatik peşəkarlığının bir sıra cəhətlərini görmək imkanı yaranacaq.

Ardı Səh. 12

# Prezidentin növbəti Avropa zəfəri:
# “Şərq Tərəfdaşlığı”nda yeni mərhələ

Əvvəli Səh. 11




## İyirmi əsas məqsəd: həyata keçirmi?

Göründüyü kimi, Aİ-nin iştirakçısı olan dövlətlərlə “Şərq Tərəfdaşlığı” ölkələrinin əməkdaşlığının dörd əsas istiqaməti sosial, iqtisadi, idarəetmə və kommunikasiya sferalarını əhatə edir. Burada siyasi və təhlükəsizlik komponentlərinin olmaması təsadüfi deyil. Birinci yazıda vurğuladığımız kimi, qlobal geosiyasi proseslər Aİ-ni həm özünün genişlənməsi, həm də həyata keçirdiyi inteqrasiya proqramlarına düzəlişlər etməyə məcbur etdi.

Dörd baza istiqamət üzrə iyirmi praktiki hədəfin müəyyənləşməsi də həmin məntiq çərçivəsində baş verdi. Həmin hədəflərin sırasına aşağıdakılar daxildir - vətəndaş cəmiyyətinin baza səviyyəsində təşkili, əsas beynəlxalq valyuta təşkilatları ilə tərəfdaşlıq şəraitində biznesə dəstək, enerji səmərəliliyi sahəsində konkret sərmayələr və islahatlar üzrə öhdəliklərin götürülməsi, 2030-cu ilədək olan dövrdə tərəfdaş ölkələri bir-biri və Aİ ilə təhlükəsiz şəkildə bağlayacaq nəqliyyat dəhlizinin yaradılması, tərəfdaş ölkələr arasında rəqəmsal rouminqin təşkili, rəqəmsal sferalarda yeni iş yerlərinin yaradılmasına Aİ-nin dəstəyi, gənclərə və təhsilə dəstək üçün yeni geniş tədbirlər planının hazırlanması, strateji kommunikasiyaların aktivləşdirilməsi və “Şərq Tərəfdaşlığı”na yeni kompleks kommunikativ yanaşma. Onu da vurğulayaq ki, qeyd olunan hədəflər kontekstində “Şərq Tərəfdaşlığı”nın çoxtərəfli institusional strukturuna yenidən baxılması da nəzərdə tutulmuşdu.

Artıq 2020-ci ilin yarısı geridə qalır. Bu müddət ərzində yuxarıda vurğulanan məqsədlərdən hansına nail olunub? Aİ Şurasının bu il qəbul edilən rəsmi sənədinin 1-ci və 2-ci bəndlərində əldə edilən nailiyyətlərə toxunulur. Ancaq reallıqda vəziyyət xeyli fərqlidir. Yəni vəziyyətə obyektiv yanaşdıqda, daha çox problemlərin olduğu aydınlaşır. Əslində, sənədin sonrakı bəndlərində Şura problemlərin mövcudluğunu etiraf edir və onları həll etmək yollarından bəhs edir. Aİ-nin “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində 2020-ci ildən sonra nəzərdə tutduğu siyasi kurs da bunun üçündür. Ancaq ciddi qüsurlarla başa çatan birinci mərhələdə bu qüsurlar ört-basdır edilir, fərqli mənzərə yaradılırsa, gələcəkdə real müsbət nəticələrin alınması ehtimalı nə dərəcədədir? Şübhələr vardır. Həmin aspektdə bir sıra mühüm hesab etdiyimiz məqamlar üzərində dayanaq.

Artıq 2020-ci ilin yarısı geridə qalır. Bu müddət ərzində yuxarıda vurğulanan məqsədlərdən hansına nail olunub? Aİ Şurasının bu il qəbul edilən rəsmi sənədinin 1-ci və 2-ci bəndlərində əldə edilən nailiyyətlərə toxunulur. Ancaq reallıqda vəziyyət xeyli fərqlidir. Yəni vəziyyətə obyektiv yanaşdıqda, daha çox problemlərin olduğu aydınlaşır. Əslində, sənədin sonrakı bəndlərində Şura problemlərin mövcudluğunu etiraf edir və onları həll etmək yollarından bəhs edir. Aİ-nin “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində 2020-ci ildən sonra nəzərdə tutduğu siyasi kurs da bunun üçündür. Ancaq ciddi qüsurlarla başa çatan birinci mərhələdə bu qüsurlar ört-basdır edilir, fərqli mənzərə yaradılırsa, gələcəkdə real müsbət nəticələrin alınması ehtimalı nə dərəcədədir?

İlk növbədə, “Şərq Tərəfdaşlığı”na daxil edilən ölkələr arasındakı problemlərin həlli ilə bağlı Aİ tərəfindən ciddi addımlar atılmadı. Məsələn, Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılması üçün Brüssel nə etdi? Sözdə çox şey danışırlar. Lakin real olaraq heç bir dəyişiklik yoxdur. Əvəzində, Aİ 2017-ci ildə Ermənistanla hərtərəfli və genişlənmiş tərəfdaşlığın qurulması ilə bağlı yeni sənəd imzaladı. Bununla yanaşı, həmin il Aİ Ermənistanla vahid aviasiya məkanı ilə bağlı sənəd imzaladı. Lakin 2017-ci ildən bu yana İrəvan nəinki qonşulara münasibətində müsbətə doğru dəyişiklik etməyib, hətta daha qeyri-müəyyən, aqressiv və pozucu xətt götürüb. Xüsusilə hakimiyyətə Nikol Paşinyan gələndən erməni hakimiyyət dairələri və diplomatik korpusu Dağlıq Qarabağ məsələsinə qeyri-konstruktiv yanaşılmasına əlavə daha radikal çalarlar qatıb. Belə bir halda “Şərq Tərəfdaşlığı”nın hansı uğurundan danışmaq olar və ya Aİ-nin Ermənistan-Azərbaycan münasibətlərinin böhrandan çıxarılması üçün hansı səmərəli addımından bəhs etmək mümkündür?

Bunların fonunda “Şərq Tərəfdaşlığı” çərçivəsində heç bir Trans-Avropa dayaq nəqliyyat şəbəkəsindən (TEN-T) danışmaq mümkün deyildir. Çünki Ermənistanın təcavüzkarlığı və onun Avropadan himayə edilməsi nəqliyyat zəncirini qırır. Bunun aradan qaldırılması üçün isə “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində heç bir iş görülmür. Görməzdən gəlirlər. Sanki hər şey qaydasındadır və günlərin bir günü Azərbaycan işğalla barışıb deyəcək ki, “yaxşı, gəlin əməkdaşlıq edək”. Təbii ki, bu, heç vaxt olmayacaq. Ölkə Prezidenti öz qətiyyətli, obyektiv, ədalətli, demokratik mövqeyini ifadə edib. Azərbaycanın ərazi bütövlüyü təmin edilməyincə Ermənistanla heç bir əməkdaşlıqdan, heç bir sahədə əlaqələrdən söhbət gedə bilməz! Bəs bu vəziyyətdə Aİ Şurasının qəbul etdiyi sənəd haqqında obyektiv olaraq nəyi demək olar?

## Aİ-nin “Şərq Tərəfdaşlığı”na yeni marağı: qlobal pandemiya və geosiyasi risklər

Hər şeydən öncə, Aİ-nin “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində tərəfdaş ölkələrlə ikitərəfli əlaqələri “əhatəlilik” (inclusiveness) və “fərqləndirmə” (differentiation) prinsiplərinə uyğun olaraq yeni tələblər və problemlər prizmasından inkişaf etdirmək əzmi özünü göstərir. Brüssel anlayır ki, indiki geosiyasi şəraitdə bu kimi proqramların reallaşması təşkilat üçün çox vacibdir. Onun üç səbəbi vardır. Birincisi təşkilata üzv olan ölkələrin gözündə Aİ-nin nüfuzunun artırılması ilə bağlıdır. Sirr deyil ki, son illər Aİ daxilində ziddiyyətlərin güclənməsinə təkan verən və üzv dövlətlər arasında fikir ayrılığını gücləndirən ardıcıl proseslər cərəyan edir. “Brekşit”in də bunda ayrıca rolu vardır. İndi Aİ-nin üzvləri belə bu təşkilatın perspektivinə eyni mövqedən baxmırlar. Bu kimi böhran şəraitində “Şərq Tərəfdaşlığı” istiqamətində qismən də olsa, uğur müsbət fikir yaradar.

İkincisi, qlobal miqyasda geosiyasi mübarizə daha da kəskinləşib. O cümlədən Rusiyanın fəallığı özünü göstərir. Artıq Moskva dünyanın bütün regionlarında liderlik uğrunda Qərblə mübarizə aparır. Onun öz sərhədlərinə yaxın məkanlarda da təsiri getdikcə daha da artır. Bu, dolayısı ilə Qərb dövlətlərinin, ilk növbədə, Aİ və ABŞ-ın həmin məkanlarda öz geosiyasi nüfuzunu itirməsi deməkdir. Brüsseldə düşünürlər ki, “Şərq Tərəfdaşlığı” proqramı həmin kontekstdə müəyyən geosiyasi kompensasiya rolunu oynaya bilər.

Üçüncüsü, yeni növ koronavirus (COVID-19) pandemiyası dünya miqyasında faktiki olaraq yeni geosiyasi, siyasi və ideoloji mühit formalaşdırır. Onun analizi hələ aparılmalıdır. Lakin indidən aydın olur ki, bu bəlaya qarşı birlikdə mübarizə aparmaq, ortaq dayanışma nümayiş etdirmək vacibdir. Bir sıra regional və beynəlxalq miqyaslı təşkilatlar bununla bağlı addım atıblar (məsələn, Qoşulmama Hərəkatı, Türk Şurası). Görünür, Aİ bundan da istifadə etməyə qərar verib. Ona görə də 2020-ci il 11 mayda qəbul edilən sənədin bir neçə bəndində COVID-19-la bağlı fikirlərin yer alması təsadüfi deyildir. Aİ həmin məsələ üzrə əməkdaşlığa, ortaq dayanışmaya çağırır (məsələn: 2, 8 və 14-cü bəndlər). Lakin COVID-19 nə qədər qorxulu olsa da, onun “Şərq Tərəfdaşlığı” proqramını reabilitasiya edə biləcəyi məsələsi qeyri-müəyyəndir.

Bütün bunların fonunda Aİ Şurasının tərəfdaş ölkələrin hər biri ilə əlaqələrini necə xarakterizə etməsi son dərəcə maraqlıdır. Bu, sənədin 5-ci bəndində qısa olaraq verilib. Orada yazılır ki, Şura Ukrayna, Moldova və Gürcüstanla imzalanmış assosiativ üzvlük sazişini alqışlayır və onun tam olaraq yerinə yetirilməsinə çağırır. Bunun üçün həmin ölkələr üzərlərinə düşən öhdəliklərə əməl etməlidirlər. Məsələn, Gürcüstan seçki sistemində dəyişiklik etməlidir. Bu olmasa, onun üçün nəzərdə tutulan 500 milyon avroluq yardım dayandırıla bilər. Ukrayna və Moldova da qarşılarına qoyulan şərtlərə əməl etməlidirlər. Bununla bu üç ölkə Aİ-yə siyasi assosiativliyi sürətləndirməli və iqtisadi inteqrasiyaya yeni təkan verməlidirlər.

Həmin bənddə daha sonra vurğulanır ki, Şura Aİ ilə Ermənistan arasında 2017-ci ildə imzalanmış əməkdaşlıq sazişinin bütövlükdə qüvvəyə minməsini gözləyir və nəyəsə ümid edir. Bundan sonra isə qeyd olunur ki, Şura Aİ ilə Azərbaycan arasında yeni çərçivə sazişi üzrə “davam edən danışıqlarda əldə edilən irəliləyişi alqışlayır”. Nəhayət, Şura Belarusla readmissiya və viza rejiminin sadələşdirilməsi istiqamətində görülən işləri də müsbət qiymətləndirir.

Azərbaycanla aparılan danışıqlarda çərçivə sazişi daxilində yuxarıda vurğulanan kontekstdən daha geniş sahədə məsələlər müzakirə edilir. Bunlara ərazi bütövlüyünün təmini, Ermənistan-Azərbaycan münaqişənin sülh yolu ilə həlli, sosial-iqtisadi aspekt, viza rejiminin sadələşdirilməsi, readmissiya kimi aktual məsələlər aiddir.

*(davamı var)*

***Kamal Adıgözəlov***
***Newtimes.az***

# "Vətəndaş məmnunluğunun təmin edilməsi üçün böyük işlər görülür"



***"Ölkəmiz, Azərbaycan Prezidenti cənab İlham Əliyev ötən illər ərzində bir çox dövlətlərə və beynəlxalq qurumlara təmənnasız dost, yardımı əlini uzadıb. Onların düşdüyü maddi və mənəvi çətinliyi nəzərə alaraq, öz köməkliyini əsirgəməyib. Xatırladım ki, hələ ötən əsrin 90-cı illərində, çətin və ağır dövrlərdə də bu yöndə addımlar atılıb. Ulu Öndərimiz Heydər Əliyev qonşu Gürcüstanda enerji çətinliyi, böhranı yaranarkən, yaşanarkən, dost, tərəfdaş yardımını göstərib. Yəni, bu, bizim ənənəvi siyasətimiz və dəyərlərimizdən qaynaqlanan bir məsələdir ki, bu gün də davam etdirilir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Kamilə Əliyeva deyib.***

K.Əliyeva bildirib ki, bu yaxınlarda 40-dan çox dövlət başçısının, nüfuzlu beynəlxalq təşkilatların rəsmilərinin iştirakı ilə keçirilən Qoşulmama Hərəkatının fövqəladə-videokonfrans formatında Zirvə görüşündə dövlət başçımız Azərbaycanın bir daha bu ənənəyə sadiqliyini nümayiş etdirərək, Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) əlavə 5 milyon dollar vəsait ayırdığını bildirdi. Bu, bir daha ölkəmizin dünyanı başına götürmüş, caynağına keçirmiş koronavirus pandemiyasının önlənməsi və qarşısının alınması istiqamətində əməli, səmimi niyyətlərini dünyaya nümayiş etdirmiş oldu. Millət vəkilinin sözlərinə görə, bir daha hər kəsə göstərilmiş oldu ki, Azərbaycan dövləti, Azərbaycan rəhbəri hər zaman-bütün situasiyalarda dostlarının, mütəfiqqlərinin, tərəfdaşlarının yanındadır, hər zaman onların problemlərinin həllində öz köməyini göstərməyə hazırdır və bu istiqamətdə də zaman-zaman addımlarını atıb və atacaq: "Bildiyiniz kimi, mayın 19-da ölkə Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak etdilər. Hesab edirəm ki, bunun özü də çox önəmli bir hadisədir. Çünki bu gün məlum səbəblərdən dünyada az qala iqtisadiyyatların çökdüyü, bütün layihələrinin icrasının dayandırıldığı, böyük maliyyə-iqtisadi sıxıntıların yaşandığı bir şəraitdə Azərbaycanda növbəti bir iş yerinin yaradılması çox böyük addımdır. Bu, həm də ölkəmizin gücünün, qüdrətinin, ölkə Prezidentinin iradəsinin və qətiyyətinin nəticəsidir. Qeyd edim ki, belə bir Mərkəzin açılması ilə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcək. Bunlar hamısı Azərbaycan vətəndaşının, Azərbaycanın insanın məmnunluğunun təmin edilməsi üçün görülən böyük işlərdir. Dövlət başçısının da dediyi kimi, bu, çox gözəl sosial təşəbbüsdür, Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Açılışdan sonra Azərbaycan Televiziyasına geniş müsahibə verən, bir çox məsələlərə geniş şəkildə toxunan, gələcək hədəflərlə bağlı önəmli mesajlar səsləndirən dövlət başçısı pandemiya ilə bağlı ölkələr, dövlətlər və beynəlxalq qurumlar arasında da əməkdaşlığa geniş toxundu, çox maraqlı faktlar səsləndirdi. Bildirdi ki, xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır. Eyni zamanda, bəyan etdi ki, cətin gündə kimin imkanı varsa, kömək etməlidir və elə bu səbəbdəndir ki, Azərbaycan tərəfindən 13 ölkəyə artıq yardım göstərilib, o cümlədən üç beynəlxalq təşkilata yardım göstərilib. Ölkə Prezidentinin də vurğuladığı kimi, bu, bir daha bizim məsuliyyətimizi göstərir".

K.Əliyeva qeyd edib ki, pandemiya dövründə həm insanlar, həm də ölkələr özünün əsl simasını üzə çıxardı: "Elə insanlar var ki, pandemiya dövründə onlara əl vermək böyük günah olar. Elə ölkələr var ki, pandemiya dövründə özlərinə qapanıblar, xüsusilə, ilkin mərhələdə bəzi addımlar atıblar və indi görünür utanırlar. Ancaq Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib. Bəli, Azərbaycan tarixində çox imtahanlarla, sınaqlarla üzləşib, hər birindən də üzüağ, alnıaçıq çıxıb, son 3 ayın hadisələri, yaşananları da bir daha bunun əyani təsdiqi, bariz nümunəsidir. Bu, bizim qürurumuz, iftixar mənbəyimiz və buna görə də hər birimiz dövlətimizə, dövlət rəhbərimizə borcluyuq, minnətdarıq".

***Ceyhun Rasimoğlu***

# <u>Azərbaycan-Kipr Dostluq Cəmiyyəti:</u> Şuşada təşkil olunan qondarma "andiçmə" mərasimi bölgədə sülhə və sabitliyə təhdiddir




Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı Ermənistanın təşkil etdiyi qeyri-qanuni "seçkilər" və qondarma "andiçmə" şousu bu ölkənin işğalçı siyasətinin təsdiqi, həmçinin təcavüzkar tərəfin beynəlxalq hüquq normalarına zidd əməlidir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Şimali Kiprdə fəaliyyət göstərən Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin (AKDC) bəyanatında yer alıb.

Bəyanatın mətni Şimali Kiprin aparıcı KİV-ləri tərəfindən türkdilli oxuculara çatdırılıb. Sənəddə diqqətə çatdırılır ki, mayın 21-də Şuşada təşkil olunan qondarma "andiçmə" mərasimi beynəlxalq hüquqa zidd, bölgədə sülhə və sabitliyə qarşı təhdid, Azərbaycana qarşı təxribatdır.

Qeyd olunur ki, bir sıra dövlətlər və beynəlxalq təşkilatlar bu "seçki" şousunu pisləyərək, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, qondarma "Dağlıq Qarabağ Respublikası"nı və oradakı "seçkiləri" tanımadıqlarını bəyan ediblər. Nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı, ATƏT, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası, GUAM, Avropa Parlamenti, TÜRKPA, həmçinin aparıcı KİV-lər, eləcə də görkəmli şəxsiyyətlər bu "seçkiləri" məqsədli təxribat, Qafqazda sülhə və sabitliyə qarşı yönələn məsuliyyətsiz siyasi addım, münaqişənin sülh yolu ilə nizamlanmasına qarşı ciddi əngəl, beynəlxalq hüquq normalarına zidd əməl kimi dəyərləndirərək, onların nəticələrinin qanunsuz olduğunu bəyan etdilər.

Bildirilir ki, "andiçmə" şousu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlara böyük zərbədir. Bu, bir daha təsdiq edir ki, qarşı tərəf Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllində maraqlı deyil. Bu fakt Ermənistanın sülh danışıqlarında beynəlxalq ictimaiyyəti aldatmağa yönələn cəhdlərində də özünü göstərir. Bu səbəbdən dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar Ermənistana qarşı daha ciddi təzyiq və sanksiyalar tətbiq etməklə onu beynəlxalq hüquq normalarına hörmətlə yanaşmağa məcbur etməlidir.

Həmçinin vurğulanır ki, Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazilərində saxta "prezident seçkiləri"nin keçirilməsi və "andiçmə" şousunun təşkili yolverilməzdir.

# Əmanətlərin stimullaşdırılması banklar üçün nə vəd edir?



"Əmanətlərin Sığortalanması Fondunun (ADIF), Maliyyə Sabitliyi Şurasının tövsiyəsi əsasında, eyni zamanda, Mərkəzi Bank ilə razılaşdırılmaqla 2020-ci il iyunun 1-dən etibarən manatla qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin 10 faizdən 12 faizə qaldırılması təqdirəlayiq addımdır. İstənilən halda, əmanətlərin stimullaşdırılması tədbirləri banklar üçün əhəmiyyətli bir hadisədir". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Pərviz Heydərov deyib. O bildirib ki, bankların əsas vəzifəsi sərbəst pul vəsaitlərini cəlb edib, lazım olan istiqamətlər üzrə dövriyyəyə buraxmaq və hər iki fəaliyyət nəticəsində arada əldə olunan gəlirdən mənfəət götürməkdir: "Sərbəst vəsaitlərin isə banklara cəlb olunması üçün müvafiq stumullaşdırıcı amillərin olması mühüm şərtdir".

Onun sözlərinə görə, sərbəst vəsaitlər banklara elə bir mexanizm çərçivəsində yerləşdirilməlidir ki, həmin vəsaitlərə sahib tərəflər bundan qazanc əldə etsin: "Bazar iqtisadiyyatı şəraitində hər bir bank çalışır ki, sərbəst vəsaitləri daha üstün təkliflərlə cəlb etsin və bu yolla da kreditləşdirməni həyata keçirmək üçün lazımi səviyyədə maliyyə resurslarına sahib olsun. Bu, olduqca mühüm məsələdir. Çünki bazar iqtisadiyyatı şəraitində rəqabət ən mühüm amillərdən biridir. Hansı ölkənin bank sektorunda rəqabət amilləri yoxdursa, banklar arasında daha çox gəlir əldə etmək, daha çox maliyyə resurslarına sahib olmaq və əlverişli şərtlərlə depozit cəlbinə nail olmaq siyasəti yürüdülmürsə, deməli o ölkədəki bank sektoru sağlam vəziyyətdə deyil. Bunlar iqtisadiyyatın inkişafı üçün ən vacib elementlərdən biridir. Bank sektoru sağlam olmayan ölkədə isə normal iqtisadi inkişafdan söhbət gedə bilməz.

Ekspert söyləyib ki, əmanətlərin sığortalanması faizinin manat üzrə 2 faiz qaldırılması sərbəst maliyyə resurslarının bundan sonra da banklara cəlbi baxımından bütün banklar üçün əhəmiyyətlidir: "Lakin bank əmanətlərinə marağın artırılması təkcə dövlətin vəzifəsi deyil. Dövlət və hökumət tərəfindən əmanətlərin sığortalanması faizinin artırılması ilə hökumət tərəfindən bir növ banklara əhalinin inamının çoxalması üçün addım atılmış oldu. Dövlət bununla, artıq 10 faizlə deyil, 12 faizlə yerləşdirilən əmanətlərə cavabdehlik daşıdığını nümayiş etdirdi. Ancaq banklara əmanət cəlb edilməsinin daha əlverişli xarakter kəsb etməsi üçün bankların özünün də addımlar atması lazımdır. Banklar özləri də çalışmalıdır ki, əhalinin, eyni zamanda sahibkarlıq strukturlarının öz vəsaitlərini yerləşdirməkdə maraqları olsun. Bunun üçün müxtəlif stimullaşdırıcı vasitələrdən istifadə edilməlidir və banklararasında bu sahədə rəqabət müşahidə olunmalıdır".

Manat üzrə əmanət faizlərinin sığortalanan hissəsinin 2 faiz qaldırılmasının ümumi kreditləşmə səviyyəsinə təsirlərinə gəlincə P. Heydərov qeyd edib ki, bu, əhalinin banklara manatla depozit qoyuluşunun artmasına təsir edə bilər.

***Nailə Məhərrəmova***

# "O tərbiyəsiz qrupun bütün üzvləri qanun qarşısında cavab verəcək"



***"Bu yaramazların, xarici kəşfiyyatlara işləyən buyruq qullarının, antimilli ünsürlərin hamısı enində-sonunda ədalət mühakiməsinə təslim ediləcək. Onların hər biri hüquq qarşısında, qanun qarşısında, məhkəmə qarşısında, xalq qarşısında cavab verəcəklər. Daha dəqiqi, cavab verməli olacaqlar". Bunu SİA-ya açıqlamasında Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev "söyüş mü-nün sədri, millət vəkili Elşən Musayev "söyüş mü-nin sədri" kimi tanınan dəstənin üzvü Qabil Məmmədovun Azərbaycana qaytarılması ilə bağlı işlərin başlanmasına münasibət bildirərkən söyləyib.***

"Yeni Baş Prokuror Kamran Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. O, dərhal məsələyə reaksiya verdi. Ekstradisiya müqavilələri incələndi və ilkin addımlar atıldı. Biz bunu çoxdan tələb edirdik. Şəxsən mənim parlamentdə məlum mövzu ilə bağlı bir neçə çıxışım, eyni zamanda hüquq-mühafizə orqanlarına müraciətlərim olub. Həmkarlarımın əksəriyyəti də bu mövqeni bölüşüblər ki, həm qanuna, həm əxlaqa, həm adət-ənənələrimizə zidd fəaliyyət göstərən söyüşcüllər, təhqir maşınının canlı vintləri tez bir zamanda ölkəyə qaytarılmalıdır. Və artıq ortada real icraat var. Proses ciddi bir şəkildə başlayıb. Gözəl xəbərdir. Təqdir edirəm. Ayrıca, prokurorluq orqanlarında çalışan peşəkar hüquqşünaslara da təşəkkürümü bildirirəm. Arzum budur ki, o tərbiyəsiz qrupun bütün üzvləri qanun qarşısında gec olmadan cavab versinlər" - deyə millət vəkili fikirlərinə davam edib.

***Gülyana***

# Paşinyana qarşı ittihamlar kəskinləşir

## *Qrant Melik-Şahnazaryan: "Nikol Paşinyanın vəzifəsindən uzaqlaşdırmaq vacibliyi mənim üçün bir əqidə məsələsinə çevrilib"*

***"Nikol Paşiynyan Ermənistanın siyasi inkişafında destruktiv faktor kimi təqdim olunursa, bu dəqiqdir". SİA panorama.am-a istinadən xəbər verir ki, sözügedən fikirləri erməni politoloqu Qrant Melik-Şahnazaryan deyib.***












Belə ki, Ermənistanın Vatikan müqəddəs taxt-tacında, Portuqaliyada və Suveren Malta ordenində keçmiş səfiri olmuş Mikael Minasyanın sosial şəbəkələrdəki silsilə ittihamlarını şərh edən politoloq bildirib ki, diplomatın baş nazir Nikol Paşiynanı vəzifəsindən kənarlaşdırmaq və izolə etmək təklifini dəstəkləyir. Qrant Melik-Şahnazaryan sözügedən təklifə münasibətinin müsbət olduğunu şərh edərkən deyib ki, bu insan (Paşinyan) savadlı şəkildə dövlət idarəçiliyini həyata keçirməsi yerinə artıq uzun müddətdir ki, ölkədaxili siyasətdə təxribatlarla məşğuldur və bunu yalnız hakimiyyətini möhkəmləndirməkdən ötrü edir: "Belə bir gərgin hal nəinki erməni siyasəti sahəsində, həmçinin hakim partiya daxilində və komandasında da baş verir. Bu elə bir faktdır ki, bir çoxlarımız onun şahidləri olmuşuq. Ona görə də, Nikol Paşinyanın vəzifəsindən uzaqlaşdırmaq vacibliyi mənim üçün bir əqidə məsələsinə çevrilib. O zamandan ki, o baş nazir oldu və onun siyasi metodlarının yoxluğu Ermənistan qarşısında dayanan problemlərin həllini mümkünsüz edib".

Şahnazaryan hakim partiyanın daxilində narazılığın artdığını da bildirib və qeyd edib ki, bu gün hakim partiya vahid yanaşma nümayiş etdirmir. "Əgər hakim qüvvə vahid deyilsə bu birmənalı şəkildə belədir, onların oxsaylı problemləri var. Bundan əlavə, bir çox nüfuzlu təmsilçilər həll yollarını axtarırlar və eyni zamanda müxalifət siyasi gücləri ilə əməkdaşlıq da istisna olunmur", deyə erməni politoloqu bildirib.

### *Ermənilər Gürcüstana qarşı qısqanclıq hisslərini gizlətmirlər:* "Gürcülərin pandemiyaya qarşı və xarici siyasətdə daha effektli iş aparmaları faktı artıq təhqir və bizə siqnaldır ki, ölədə işlər yaxşı getmir"

Maraqlıdır ki, o, Ermənistanı Gürcüstanla da müqayisə edərək, ölkəsinin utanc yerində qaldığını deyib. Belə ki, o Mikael Minasyanın Gürcüstanın maliyyələşməsi ilə bağlı 3 milyard dollarlıq razılaşma əldə etməsi məsələsini Ermənistan üçün utancverici olduğunu qeyd edib: "Milli rüsvayçılıqla bağlı fakt budur ki, Gürcüstan özünü Ermənistandan daha təşkilli olduğunu göstərib, halbuki, tarixən hər şey tərsinə olub. Gürcülərin pandemiyaya qarşı və xarici siyasətdə daha effektli iş aparmaları faktı artıq təhqir və bizə siqnaldır ki, ölədə işlər yaxşı getmir. Qonşu ölkədə infeksiyaya yoluxma halları gün ərzində 1-2 nəfər artır, Ermənistanda isə hər gün yüzlərlə yoluxma halları qeydə alınır və vəziyyət hər gün get-gedə daha da pisləşir. Görünən budur ki, biz qonşu Gürcüstandan geri qalırıq, bununla yanaşı regionda çoxsaylı gərginlik ocaqları var və bizim qonşularımızdan geri qalmağa haqqımız yoxdur".

### *Armen Aşotyan:* "Nikolcan, ərizəni yaz və çıx-get"

Ermənistanın Respublika partiyasının vitse-sədri Armen Aşotyan isə news.am-a açıqlamasında deyib ki, Nikol Paşinya heç də xalqın məsələlərini həll etməyə gəlməyib: "İki il əvvəl bu bəzilərinə aydın idi, o cümlədən bizə də, indi isə yüz minlərlə insana aydındır. İndi hər bir vətəndaş öz problemi ilə baş-başa buraxılıb. Nikolcan, səndə heç nə alınmayacaq, hər şey pisdir, iqtisadiyyat, soaial vəziyyət, xarici siyasət, "Artsax" danışıqları, hər şey pisdir, dost, yaz ərizəni və get".

Aşotyannın sözlərinə görə, bu gün Ermənistan virusla mübarizədə birgə əməkdaşlıq etmək yerinə, avtoritar idarəçiliyə keçirvə bu ölkələr sırasında yer alır. O, az sonra bütün dünyanın Ermənistanda nələrin baş verdiyini biləcəyini bildirib və həttta həmin məsələyə şəxsən əl qoyacağını bildirib.

***Rövşən RƏSULOV***

## Pandemiyadan sonra dünya iqtisadiyyatını nə gözləyir?



"Hazırda dünya iqtisadiyyatı kəskin böhran içərisindədir. İstehsal sahələrinin dayanması, iqtisadi aktivliyin sıfır həddinə düşməsi dünya iqtisadiyyatının bütün aparıcı ölkələrində işsizliyi kəskin artırır". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Pərviz Heydərov deyib. O bildirib ki, neftin dünya bazarında qiymətinin ucuzlaşması ilə əlaqədar istehsalçı ölkələrdə energetika sektorunda işsizlik daha yüksək sürətlə çoxalır: "ABŞ hökuməti bu prosesin qarşısıalınmaz hala gəlməsindən ehtiyatlanaraq koronavirusa görə qadağaları mümkün qədər tez aradan qaldırılmasına, iqtisadi aktivliyin bərpa olunmasına çalışır. Məhdudiyyətlər götürülsə belə, iqtisadi bərpanın ləng gedəcəyi gözlənilir ki, bunun da nəticəsində işsizlik artımı dünyada hələ avqust-sentyabra qədər davam edəcək".

Azərbaycana gəlincə, ekspert qeyd edib ki, hazırda ölkədə işsiz sayının reallıqda nə qədər olduğunu söyləmək çətindir: "Bəziləri 190 manat müavinət verilən 600 min nəfərin hamısının işsiz kimi qəbul olunmasını təklif edirlər. Lakin bu, düzgün yanaşma deyil. Çünki o yardımı alanların içərisində qeyri-rəsmi məşğul olanlar, müxtəlif özünüməşğul şəxslər də var. Yəni bu müavinəti almaq hələ işsiz olmaq demək deyil. Koronavirusla bağlı vəziyyət belə deməyə əsas verir ki, ölkədə işsizlərin sayı 200 min nəfər civarındadır".

P. Heydərov vurğulayıb ki, iqtisadiyyatın bərpası bir anda baş verəcək proses deyil: "Xüsusilə pandemiyadan ən çox zərər çəkmiş sahələrdə bu proses aylarla vaxt tələb edəcək. Buna görə də ictimai iş yerlərinin sayı artırılır, özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilir, həmçinin ünvanlı sosial yardım proqramına cəlb olunanların da sayı artırılır. Yəni hökumət yeni tam iş yerlərinin yaradılması istiqamətində vəziyyətin gərgin olduğunu nəzərə alaraq, digər yollarla iş yerini itirmiş, gəlirlərindən məhrum olmuş şəxslərə dəstək verməyə çalışır".

***Nailə Məhərrəmova***

## Donald Tramp: "Çin ABŞ-a meydan oxuyur"



Donald Tramp, Çinin onun rəqibi Cozef Baydenin prezident seçkilərində qalib gəlməsində maraqlı olduğunu bəyan edib.

SİA RİA Novostiyə istinadən xəbər verir ki, bu barədə Sputnik Radiosuna politoloq Pavel Şipilin verdiyi müsahibəsində deyib. Politoloq qeyd edib ki, bu açıqlama ilə ABŞ prezidenti bir güllə ilə iki dovşanı vurmağa çalışır. ABŞ prezidenti Donald Tramp prezident seçkilərində rəqibinə, keçmiş vitse-prezident Co Baydenə kömək etməli olan kütləvi dezinformasiya kampaniyasına başlamaqda Çini ittiham edib. Tramp, Pekinin seçki məğlubiyyətindən faydalanacağına inanır. "Çin yalnış məlumatlandırma kampaniyasına rəhbərlik edir, çünki onlar ümidsiz Co Baydeni prezident yarışının qalibi kimi görmək istəyirlər ki, onlar meydana çıxmağımdan on illər əvvəl ABŞ-ı parçaladıqları kimi davam etsinlər!", deyə Tramp Twitter-də yazıb.

Sputnik Radiosunda ABŞ prezidentinin açıqlamasını politoloq Pavel Şipilin şərh edib.

"Bu tvitlə Tramp iki dovşanı bir güllə ilə vurmağa çalışır. Birincisi, Çini günahlandırır və Tramp bunu davamlı və ardıcıl olaraq edir. İkincisi də, Çini əsas rəqibi ilə əlaqələndirir. Əslində, növbəti prezidentin kim olmasından asılı olmayaraq Çin Amerika Birləşmiş Ştatları üçün təhlükə yaradır. Çin xüsusilə pandemiyadan sonra ABŞ-ın dözə bilmədiyi qlobal liderliyi açıq şəkildə iddia edir. Buna görə də hər fürsətdə Çinə "addım" atacaq və ticarət müharibələrini davam etdirəcəklər. ABŞ üçün Çinin liderliyi tamamilə qəbulolunmazdır və buna görə də Donald Tramp Çini bütün ölüm hallarında günahlandırır", deyə Pavel Şipilin vurğulayıb.

## Azərbaycan cari ildə MDB ölkələrindən ən çox Rusiyaya məhsul göndərib

Yanvar-aprel aylarında Azərbaycan MDB ölkələri arasında ən çox Rusiyaya məhsul ixrac edib. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın MDB ölkələri arasında ən çox məhsul ixrac etdiyi ölkələr Rusiya, Ukrayna və Belarus olub. Rusiyaya ixrac olunan məhsulların dəyəri 193,5 milyon ABŞ dolları, Ukraynaya 171,8 milyon dollar, Belarusa isə 50,3 milyon dollar olub.

# Gürcü dövlətçilinin ermənilər tərəfindən saxtalaşdırılması

***Sərsəm fikrin müəllifləri olan ermənilər özləri də hiss etmədən özlərinnə zidd olaraq etiraf edirlər ki, gürcülər və gürcü dövləti hələ də dünyada mövcuddur. Lakin bu "səxavətli ermənilər"in nəyə görə özləri üçün deyil, "qardaş gürcü xalqı üçün çalışdıqla-rı", başqasının mədəniyyətini, elmini, paytaxtını və dövlətini yaratdıqları tam şəkildə aydın deyildir, bu isə ona görədir ki, onlar XI əsrdə öz dövlətçiliyini, demək olar, bütün minillik boyu itirmişlər.***

Məsələn, daha bir professor M.Bliev iddia edir ki, məhz "Zaqafqaziyada ən böyük gürcü çarlığını yaradanlar osetinlər"dir. Hazırkı Apsua-abxazları isə öz növbəsində deyirlər ki, məhz onlar bu dövləti - "Abxaz çarlığı"nı (mənbələrdə belə adla, bir sıra hallarda isə Gürcüstanın orta əsrdəki dövlətinin adı çəkilir) yaratmışlar.

Apsua abxazları! Bəs ruslar?... Rusların bəziləri B. Borisov, A.Yepifantsev, A.Vaşenko və başqaları - öz missiyasına sadiq olanları, həmişə olduğu kimi, inşa edə bilmədikləri halda, öz məhv etdiklərini Allahın mərhəməti kimi təqdim edirlər. Beləliklə də, görünür rus psixologiyasına məxsus şəkildə çıxış edən B. Borisov - pisliyi özündə yox, başqalarında görmək kimi səciyyəvi bir "mərhəməti" ilə açıq şəkildə bəyan edir ki, "gürcü millətinin Rusiyadan ən yaxşı humanitar yardımı onların "çoxəsrlik dövlətçiliyi"nin dağılmasına gətirib çıxaracaq!

"Beləliklə, ətrafdakılar (və çalışırlar) gürcü xalqının və gürcü dövlətinin rifahı naminə çalışdılar, bu zaman gürcülərin özlərinin nə ilə məşğul olduqlarını isə Allah bilir!"

Bizim "xeyriyyəçilərimiz" öz aralarında bu xeyirxah işə dair kimə üstünlük verəcəklərini və kimə təşəkkür edəcəyimizi araşdıracaqlar, ancaq ciddi danışsaq, onda qeyd etməliyəm ki, XI əsrin ikinci yarısından etibarən Zaqafqaziyadakı erməni dövlətçiliyi yer üzündən yoxa çıxdı, ermənilər isə bütün istiqamətlərə qaçmağa başladılar. Əgər gürcülər, o cümlədən vahid Qafqaz dövlətini yaratmış böyük Qurucu David (1089-1125 - ci illər) olmasaydı, orta əsrlərin tarixində nadir bir hadisəni - xristian, müsəlman, bütpərəst xalqların və tayfaların birlikdə dinc şəraitdə yaşadığını; səlcuq türklərini Ermənistandan qovaraq erməni xalqını tamamilə məhv olmaqdan xilas edən və şəxsən himayədarlıq edən şəxsiyyəti, eləcə də Zaqafqaziyadakı erməni dövlətinin və xalqının mövcudluğunu tarixçilərdən başqa heç kim xatırlaya bilməzdi, necə ki, bu gün tarixçilərdən başqa heç kəs Kilikiya erməni çarlığını və Kilikiya ermənilərini xatırlamır.

Təəssüf ki, son illərdə artan təcavüzü, məhəl qoymamağı və ya ilkin mənbələrin məlumatlarını (yalnız qədim gürcü deyil, həm də Bizans və hətta qədim erməni mənbələri) saxtalaşdırması ilə yanaşı olaraq müasir erməni tarixşünaslığı daha bir əhəmiyyətli cəhəti ilə də səciyyələnir: bir qayda olaraq, onlar Gürcüstan tarixçilərinin (mübahisəli məsələlər əsaslandırılmış şəkildə işıqlandırılır) nəşrlərinə etinasızlıq göstərərək öz qədim və əsasız sevimli faktlarını inadkarcasına təkrar edirlər.

Məhz buna görə də ilk dəfə dərc olunan məqalələrlə yanaşı, Gürcüstanın pravoslav kilsəsinin yanındakı xristian araşdırmalarının Beynəlxalq elmi mərkəzinin təşəbbüsü ilə nəşr olunan və təklif olunan tematik məcmuəyə əvvəllər, hətta ötən əsrin 40-cı illərində dərc edilmiş məşhur gürcü tarixçilərinin tədqiqatları da daxil olunmuşdur.

Tarixi həqiqətin təhrif olunmasının bir nümunəsi haqqında N. Tokarskinin "Ölkəmizdə qədim tarix elminin memarlığı" əsəri əhəmiyyətli nailiyyətlərin əldə olunmasına səbəb oldu.

Vaşinqton universitetinin professoru K. Tumanovun "Xristian Qafqazının tarixi məsələləri" adlı əsərində gürcü Baqrationlarının erməni mənşəli olması "təsdiq olunur". Professorun bizi inandırmağa çalışır ki Baqrationlar Arteşesidlərin zamanında, II-IV əsrlərdə Ermənistandan Kartlinin cənub-qərb rayonlarına köçdülər, burada isə bunun da heç bir əsası yoxdur çünki professor Tumanovun fikrini bu baxımdan təsdiq edən heç bir mənbə yoxdur.

Xəritəyə görə, "Böyük Ermənistan"ın gürcü-erməni münasibətlərindəki məqsədləri, böyük tirajla satışa çıxan Vermişevin "Amirspasalar" adlı romanında (1968-ci ildə Müdafiə Nazirliyinin nəşriyyatında 65 min nüsxədən ibarət olmaqla çap olunmuşdur) öz əksin tapır.

1974-cü ildə İrəvanda dərc olunan və "Erməni sovet ensiklopediyası"nın birinci cildində öz əksini tapan məqaləyə "Abxaziyadakı ermənilər" adlı böyük bir paraqraf əlavə olunmuşdu, harada ki qeyd olunurdu: "Qafqazın Qara dənizinin sahilində xüsusən də Abxaziyada ermənilər orta əsrlərdən bəri məskunlaşmışlar, sonrakı əsrlərdə isə onların Abxaziyada məskunlaşması davam etmişdir".

Bu açıq-aşkar saxtakarlıqdır. Ermənilərin bu diyarda V əsrdən məskunlaşmasına dair heç bir sənəd mövcud deyildir. Orta və sonrakı əsrlərdə isə bu barədə danışmaq üçün heç bir əsas yoxdur.

XIX əsrin əvvəllərində bütün Qərbi Gürcüstanda, əsasən də İmeretidə təqribən 1500 nəfər erməni yaşayırdı. Deməli o dövrdə Abxaziydakı ermənilərin sayı az olmuş və mühacirətdən əvvəl abxazların işğal etdikləri ərazilərin bir hissəsi 80-90-cı illərdə Türkiyə erməniləri tərəfindən işğal olunmuşdur. Bu isə Rusiya imperiyasının istəyi ilə baş vermişdir. Onlar Gürcüstan əhalisini süni şəkildə ləkələməyə və bununla da Gürcüstana ölümcül zərbə endirməyə çalışırdılar.

Almaniyanın qərbində, İngiltərə və Fransada ermənilər sistematik olaraq Gürcüstana və Qafqaza aid xəritə və kitablar nəşr etdirmişlər, harda ki, Gürcüstanın tarixi saxtalaşdırılmışdır. Bəzi "erməni himayədarları" gürcü xalqını axmaq yerinə qoymaq və alçaltmaq üçün hər növ əxlaqsız üsullardan istifadə edirlər. Onlar təsdiq edirlər ki gürcülər "pulsuz və əclaf"dırlar. Onlar heç bir şeyi bacarmır və əgər Gürcüstanda nəsə edilmişdirsə də bu yalnız ermənilərin səyilə, əllərilə və qabiliyyətləri ilə mümkün olmuşdur.

1979-cu ildə İrəvan universitetinin nəşriyyatında, çox böyük formatda - "IV əsrdəki böyük Ermənistan çarlığı (198-385-ci illər)" adlı tədris xəritəsi çap olundu. "Qədim Qafqazın tarixi mənbələrinin ən yaxşı bilicisi" hesab olunan akademik S. Yeremyan bu xəritəsində - Qara dənizdən, Urmiya gölü və Van gölündən - Tiqros çayı və Yevfrat çayına eləcə də buradan da qərbə qədər bütün Gürcüstan Ermənistanın əhatəsində görünür. Şimal sərhədi Tbilsinin özündə yerləşir, Ermənistana isə təkcə Kvemo-Kartlinin yox, Cavaxetinin, Artaaninin, Şavşet Klarcetinin və Taonun da aid olduğu göstərilir.

Bu təhsil xəritəsində heç bir şərti işarə qaydaları yoxdur, heç əfsanədə də qeyd olunmur ki, Kvemo-Kartli və Çoroxi hələ IV əsrdə erməni çarlığı tərəfindən arzu olunan gürcü torpaqlarıdır. Bu məsələ cahil bir insana elə görünə bilər ki sanki bu torpaqlar lap əvvəldən Ermənistanın şəxsi mülkiyyəti olmuşdur.

Eynən belə bir xəritə, qısaldılmış və sxematik şəkildə, "Sovetakan Xayastan" (1988, №1) jurnalında dərc olunmuşdur. Elə oradaca R. İşxanyanın "İlk erməni çarı deyil" adlı məktubu öz əksini tapmışdır. Bu məktubun xəritə ilə heç bir bağlılığının olmasına baxmayaraq, o, qədim xristian dövründən etibarən "Böyük Ermənistan"ın əsaslarını eləcə də sərhədlərini tapmağa və müəyyənləşdirməyə çalışır.

Xəritəyə kiçik bir məktub da əlavə olunur, harda ki qeyd olunur ki erməni salnaməsinin adları Ermənistanın dağ və çaylarının tarixi adlarından eləcə də bütpərəst allahların (Armazd, Anaxit, Vaxaqn və s.) adlarından yaranmışdır.

Belə xəritələrin nəşri tarixi-siyasi inkişaf proseslərinin və mədəni-etnik hadisələrin dinamik inkişafı haqqında düzgün təsəvvür yaratmır, bununla yanaşı sözügedən nəşrlər sırf tarix əleyhinədir. Bu xəritələrin gənclər üçün tədris vasitəsi olması və öz xalqının tarixi inkişafı haqqında yalan məlumat verməsi təəssüf hissi yaradır.

Bu tendensiyalar təkcə yuxarıdakı xəritələrdə qeyd olunmur. 1986-cı ildə "Sovetakan qrox" nəşriyyatı, X əsr erməni tarixçisi Ovanes Drasxanakertin "Ermənistan tarixi"nin rus dilində tərcüməsini yayımladı ki burada da 3 tarixi xəritə əlavə olunmuşdu. Xəritədə "Ermənistan və sərhəd ölkələri"nin 591-653-cü, 701-862-ci və 862-953-cü illərdəki vəziyyəti təsvir olunmuşdur. Bu xəritədə bir sıra qeyri-dəqiqliyə yol verilmişdir. Məsələn, birinci xəritədə Taşir və Çaneti (indiki Lazistanın) yenidən Ermənistanın dairəsinə əlavə olunmuşdur. İkinci xəritədə isə Qərbi Gürcüstandan başqa bütün Zaqafqaziya Ermənistanın dairəsinə əlavə olunmuşdur. Üçüncü xəritədə "Gürcü Baqrationları"ın krallığı "Tao-Klarcetidən olan Baqrationlar"ın krallığından elə fərqləndirilir ki sanki onlar müxtəlif sülalələrin nümayəndələrini təmsil edirlər və s.

Tarixi-siyasi coğrafiya tarix elminin həssas sahələrindən biridir. Ona görə də hər bir zəruri faktın müəyyən edilməsi və xəritə üzərində qeyd edilməsi böyük ehtiyatlılıqla yanaşı həm də ciddi sübutların olmasını da tələb edir. Buradan aydın olur ki, xüsusi sübutu olmadan yuxarıda qeyd olunan xəritələrin nəşri əsassızdır.

1988-ci ildə Almaniyada Ulrix Bokun "Gürcüstan və Ermənistan" adlı bələdçisi nəşr olundu. Bələdçinin Ermənistanın tarixinə dair hissəsində çox hiyləgərcəsinə tərtib edilmiş xəritələr verilmişdir. Bütün xəritələrdə Kür çayının yuxarı hissəsinin "Böyük Ermənistan"ın əhatəsində olduğu göstərilir. Gürcüstanın toponimləri isə heç yerdə görünmür. Ulrix Bokaya material verən insanların məqsədi, alman dilli əhalinin yaddaşında zaman məkanının belə bir anlayışını əks etdirməkdən ibarət olmuşdur. Bu xəritədə "kiçik Ermənistan" ərazisi ilə nəinki onun tarixi yeri, həm də müasir Trabzon dairəsi göstərilmişdir ki, burada da o dövr ərzində ermənilərin Qara dənizə çıxışına imkan verən gürcü çənləri yerləşdirilmişdi.

Kitabda aşağıdakı xəritə yerləşdirilmişdir, guya Ermənistan bizim eramızın 387-ci ilində Bizansla İran arasında yerləşir və Ermənistanın buradakı sərhədləri Kürün bütün sağ sahilini eləcə də yuxarı hissənin sol tərəfini əhatə edir.

Kitabda eramızın X əsrində "Baqrationların çarlığı" və "Vaspurakan çarlığı" təsvir olunmuşdur, harda ki Batumi, Çorox dərəsi eləcə də Samtsxe-Cavaxeti Ermənistanın əyalətləri kimi göstərilir.

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**Son səhifə**

22 may


## Filippe Koutinyo İngiltərə yolçusudur?



Almaniyanın "Bavariya" klubunun futbolçusu, müqavilə ilə İspaniyanın "Barselona" komandasına məxsus olan braziliyalı Filippe Koutinyo karyerasını İngiltərədə davam etdirə bilər. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, hazırda Koutinyonu heyətinə qatmağa çalışan ən real namizəd "Mançester Yunayted" klubu sayılır. "Qırmızı şeytanlar"ın yaxın günlərdə təklif göndərəcəyi gözlənilir. "Mançester Yuneyted" ilə yanaşı, digər ingilis klubları - "Çelsi", "Tottenhem" və "Liverpul" da futbolçu ilə bağlı vəziyyəti yaxından izləyirlər. Koutinyo 2019-cu ilin yayından 8,5 milyon avro qarşılığında "Bavariya" klubuna icarə əsasında keçib. Cari mövsümdə Bundesliqada 22 matçda meydana çıxan 27 yaşlı futbolçunun aktivində 8 qol və 6 məhsuldar ötürmə var.

Koutinyunun "Barselona" ilə olan müqaviləsi 2023-cü ilin yayında başa çatır. "Bavariya" və "Barselona" klubları arasında müqavilənin şərtlərinə əsasən Münxen təmsilçisi 120 milyon avro qarşılığında futbolçunu transfer edə bilər.

## COVID-19 əleyhinə peyvəndin istehsal olunacağı vaxt açıqlanıb



***Böyük Britaniyanın "AstraZeneca" əczaçılıq kompaniyası testlərin nəticələri müsbət olacağı təqdirdə Oksford Universiteti ilə birgə hazırladığı COVID-19 infeksiyası əleyhinə vaksinin kütləvi istehsalına sentyabr ayında başlamağı planlaşdırır.***

Xezerxeber.az Britaniya KİV-lərinə istinadla xəbər verir ki, kompaniya azı 400 milyon vaksinin çatdırılması üzrə ilk müqaviləni imzalayıb, həmçinin milyard doza hazırlamaq üçün şərait yaradıb. "AstraZeneca" 2020-ci ilin sentyabrında ilk çatdırılmaları həyata keçirmək niyyətindədir.

# - Covid-19

## Cazibədar modelin 10 illik evliliyi bitdi



***Məşhur britaniyalı aktyor Brayan Ostin Qrin cazibədar model Meqan Foksla 10 illik evliliyinin bitdiyini elan edib. Bu barədə "Star News" Teleqram kanalı xəbər yayıb.***

Məlumata görə, ayrılığa səbəb xəyanət olmayıb. Qərar Meqan tərəfindən irəli sürülüb. Onların yenidən birləşəcəyi də istisna edilmir, çünki cütlük dostluğunu qoruyub saxlayıb.

## Federiko Kyeza gələcəyi ilə bağlı qərarını verdi

***İtaliyanın "Fiorentina" klubunun futbolçusu Federiko Kyeza barəsində yayılan transfer xəbərləri ilə bağlı yekun qərarını verib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, italyalı yarımmüdafiəçi müqaviləsinin sonuna qədər "Fiorentina"da qalmaq istədiyini açıqlayıb. İyirmi iki yaşlı futbolçunun bu klubla müqaviləsi 2021-ci ilə qədər qüvvədədir.***

Qeyd edək ki, F.Kyeza ilə "İnter" və "Yuventus"la yanaşı, İngiltərə Premyer Liqasında çıxış edən bir sıra klublar da maraqlanır.

"Koronavirusa qarşı vaksinin hazırlanması və istehsalı prosesinin sürətləndirilməsi üçün göstərdiyi dəstəyə görə ABŞ və Böyük Britaniya hökumətlərinə minnətdarıq. Vaksini tezliklə hazırlamaq və onu əlçatan etmək üçün əlimizdən gələni edəcəyik", - deyə kompaniyanın rəhbəri Paskal Sorio bildirib. ABŞ hökuməti koronavirus əleyhinə peyvənd hazırlanması üçün "AstraZeneca" kompaniyasına bir milyard dollardan çox vəsait köçürüb.

Qeyd edək ki, İngiltərədə keçirilən klinik sınaqların ilk mərhələsinin nəticələri iyunda bəlli olacaq. Uğurlu alınacağı təqdirdə sınaqlar digər ölkələrdə də davam edəcək. Plana görə sentyabr ayında 30 milyon britaniyalı, yəni birləşmiş Krallıq əhalisinin təxminən yarısı vaksin əldə edə biləcək.

## Azərbaycanda bu il nikaha daxil olan və boşananların sayı məlum olub

Bu ilin ilk üç ayında Azərbaycanda qeydiyyat şöbələri tərəfindən 12 127 nikaha daxilolma qeydə alınıb. Bu barədə xezerxeber.az-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Qeydə alınmış boşanma hallarının sayı isə 3 823 təşkil edib. Əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 4,9, boşanmaların sayı isə 1,5 olmuşdur.



## "Milan" bu futbolçu üçün 50 milyon avro qiymət qoydu!

***İtaliyanın "Milan" klubu müdafiəçisi Teo Herdandesin transferi üçün 50 milyon avroluq qiymət müəyyənləşdirib. Xarici KİV-lərin məlumatında deyilir ki, Milan təmsilçisi Fransanın "Paris Sen-Jermen" klubunun bir neçə sorğusuna cavab olaraq futbolçu üçün belə bir qiymət qoyub.***

Əvvəllər mətbuatda parislilərin idman direktoru Leonardonun futbolçuya 30 milyon avro təklif etdiyi bildirilmişdisə də, ancaq "qırmızı qaralar" bundan imtina ediblər.







**Baş redaktor:**
Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600